# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 32 (3448) Cümə axşamı / 18-24 avqust 2022-ci il Qiyməti 40 qəpik




# Orduda smartfon qadağası

**Müdafiə Nazirliyinin yaydığı məlumatlara əsasən son bir neçə ayda müəyyən qrup hərbçilər işdən çıxarılıb. Həmin hərbçilərin smartfonla çəkilişlər edib özlərinin sosial şəbəkə səhifələrində paylaşdığı bildirilir. Ümumiyyətlə, hərb sistemində olan şəxslərə smartfon və sosial şəbəkə qadağasının gətirilməsi mümkündürmü? Dünyada bu təcrübə varmı və Azərbaycanda da tətbiq oluna bilərmi?**



**■ Hərbi ekspert Elxan Şıxəliyev hafta.az-a bildirib ki, smartfon telefonların Silahlı Qüvvələrdə, xüsusən Milli Ordu zabitlərində, gizirlərdə, maxelərdə, əsgərlər səviyyəsində istifadə olunması güc strukturlarının ən yaralı yeridir. Ekspert qeyd edib ki, Müdafiə Nazirliyinin müfaviq əmrinə əsasən bütün ranq hərbçilər - generalından tutmuş axırıncı əsgərə qədər, hər kəsə smartfon telefonların istifadəsi qadağandır. Müdafiə Nazirliyinin əmri bütün şəxsi heyət üçün keçərlidir.**

Hərbi ekspert təəssüflə bildirib ki, Müdafiə Nazirliyinin müvafiq əmri pozulur. "Bu əmrin pozulması ciddi hərbi sirlərin yayılmasına səbəb olur. Bəzi hərbçilər üzərlərində adi telefon daşımaqla yanaşı, qanunu pozaraq gizli şəkildə ikinci telefonu - smartfonları da götürürlər. Həmin telefonlarla etdikləri çəkilişləri sosial şəbəkə üzərindən paylaşarkən həmin materialların kimə xidmət edəcəyini təsəvvür belə edə bilmirlər. Mən düşünmürəm ki, belə bir səhvi yüksəkranqlı zabitlər etsin. Operativ-strateji səviyyədə xidmətdə olan zabitər bunun nə dərəcədə neqativ nəticələr doğuracağını bilir. Müddətdən artıq xidmət edənlər içərisində gizirlər, kapitan rütbəsinə qədər olan tağım, bölük komandirləri və digər komandirlər heyəti içərisində smartfon telefonlar vasitəsilə çox ciddi məxfi məlumatların yayılmasına səbəb ola biləcək çəkilişlər edənlər olur. Sosial şəbəkələr də müvafiq orqanların, müvafiq qurumlar tərəfindən izlənildiyi üçün bunun kimin etdiyini çox asanlıqla təsbit edirlər. Nəticədə, Müdafiə Nazirliyi bu hərbçiləri ehtiyata buraxmağa qədər sərt qərarlar qəbul edir. Əgər hərbçi bu səhvi bir neçə dəfə təkrar edirsə, birinci xəbərdarlıq, söhbətləşmə ilə qarşısını almağa çalışırlar. Təkrar olunduğu halda, Müdafiə Nazirliyi sonuncu addım kimi ciddi qərər qəbul edir".

E.Şıxəliyev bu cür halları arzuolunmaz hesab edir. Onun fikrincə, hərbçilər birmənalı şəkildə aktiv sosial şəbəkə istifadəçiləri olmamalıdırlar.

"Hərbçi sosial şəbəkənin izləyicisi olsa da, aktiv şəkildə paylaşımlar etmək aludəçiliyi olmamalıdır. Hərbçi yalnız evində başqa ailə üzvünün telefonu üzərindən ətrafda olub- bitənləri izləyə bilər. Özü öz hesabından yalnız o halda istifadə edə bilər ki, ordudan təxris olunsun".

Hərbi ekspert hərbçinin smartfonla paylaşımlar etməsinin hansı əks-effekt verməsinə diqqət çəkib. O bildirib ki, Ermənistan xüsusi xidmət orqanları bu və ya digər şəkildə Azərbaycan sosial şəbəkələrini izləyirlər.

"Sosial şəbəkələr üzərindən paylaşdığımız məlumatlar kəşfiyyat məlumatların kontekstinə daxil olur. Bir hərbçinin ərazidə paylaşdığı videonun mülki əhali üçün diqqətçəkən məqamı olmasa da, qarşı tərəf hərbi hissələrin lokasiya yerlərinə, komandanlıqlarının vəzifələrinə, texnikalarına, nömrələrinə, geyim formaları ilə qarşı tərəfə məlumatlar toplamaq imkanı verir. Azərbaycan Silahlı Qüvvələrinə dair formuryalar var və Azərbaycan Ordusunun döyüş say tərkibini aşkarlamaq üçün məlumatları ora doldururlar. Bu məlumatların bir neçə yerdən toplanması məsələsi var. Ermənistan silahlı qüvvlərinin baş kəşfiyyat idarəsi hərbi hissə komandirlərinin adlarını ora əlavə edirlər, texnikaların nömrələrini, sayını, o qrafada nə görürlərsə doldururlar. Yəni sosial şəbəkə istifadəçiləri həqiqətən də bilmirlər ki, belə paylaşımlarla erməni kəşfiyyat orqanlarına məlumat ötürmüş olurlar. Özləri də bilmədən hər hansı məlumatı, hərbi sirr xarakterli məlumatı palaşdıqca qarşı tərəf bundan məharətlə istifadə edir. Bunun üzərinə erməni silahlı qüvvələri təyin etdikləri "həmin adamla" əlaqə saxlayıb, onu bu və ya digər formada cəsusluğa cəlb etməyə çalışırlar. Yəni bunun arxasında yarana biləcək digər nüanslardan qarşı tərəf məharətlə istifadə edir. Sosial şəbəkə istifadəçiləri hərbi sirrin nə olduğunu təsəvvür edə bilmədikləri üçün bu videolardan istifadə edirlər. Smartfon telefonlardan istifadə aktiv hərbi əməliyyatlarda, müharibənin gedişlərində yüksək rütbəli zabitlərin qərərgahlarının lokasiya yerlərinin kordinatlarının aşkar olunub məhv edilməsinə səbəb ola bilir. Ona görə də bu arzuolunmaz bir məsələdir. Dünyada hərbi sirrə malik olan qüvvələr xüsusi rabitə sistemindən istifadə edirlər. Onlar xüsusi kodlaşdırılmış rabitə sistemləridir və dinləmək mümkün deyil". Hərbi ekspert belə səhvlərin güc struktru mənsubları üçün arzuolunmaz hal olduğunu bildirib. Onun sözlərinə görə, belə hallar bir çox hallarda bu istiqamətdə ciddi maarifləndirmənin olmaması və ciddi təlimlərin həyata keçirilməməsi ilə bağlıdır. Onun fikrincə, milli orduda olduqları zaman əsgərlərlə bu barədə ciddi iş aparılsa, təlimlər keçilsə belə olmaz.

"Təəssüflər olsun, 100 minlik ordunun içərisində 1-2 belə nizam-intizamı zəif olan hərbçilər üzrindən fors-major hallar yaşanır. Zamanında bu istiqamətdə maarifləndirmə, təlimatlandırma işləri aparılarsa bu kimi halları sıfırlamaq mümkün olacaq".

**■ Hərbi təhlilçi Alp Arslan İmamqulu bu məsələdə hər zaman ciddi və diqqətli yanaşmanın tərəfdarı olduğunu bildirib.** Müharibə zamanı bir çox hərbi informasiyaların sosial mediaya sızdırıldığını xatırladan A.A.İmamqulu bunun bəzən insanlarımız tərəfindən mənəvi-psixoloji dəstək kimi qəbul edilməsinə baxmayaraq, belə faktların ortaya çıxmasını qətiyyətlə qınadığını bildirib. Onun fikrincə, heç bir şəkildə Müdafiə Nazirliyinin rəsmi səhifəsində yerləşdirilməyən görüntülər sosial mediada paylaşılmamalıdır.

"Müdafiə Nazirliyində daxili əmr və sərəncamlara uyğun olaraq hərbi qulluqçuların xidmət zamanı smartfon tipli telefonlardan istifadə etməsi qadağan olunmuşdur. Demək olar ki, vaxtaşırı hər bir hərbi qulluçu xidmət etdiyi hərbi hissələrdə bu barədə təlimatlandırılır. Bütün bunlara baxmayaraq, tutduğu vəzifə rütbəsindən asılı olmadan bir çox hərbi qulluqçular xətalara yol verirlər. Xüsusən də xidməti sahələrində məxfilik rejiminə zidd hər hansı bir məlumatın və ya görüntünün kənara sızdırılması ciddi bir nöqsandır.

Çünki əməliyyatın planlaşdırılması və icrası zamanı kiçik bir boşluq düşmən üçün kəşfiyyat məlumatı xarakteri daşıyır". Bütün bunları nəzərə alaraq A.A.İmamqulu bəyan edir ki, hərbi qulluqçuların xidmət zamanı yer və məkandan asılı olmayaraq smartfon tipli telefonlarla sosial mediada paylaşımlar etməsi sərt bir şəkildə qınanmalı, o cümlədən bu məlumatları əldə edən media münayəndələri xəbərləri yayarkən daha diqqətli davranmalıdırlar.

*✍ Tahirə Qafarlı*

> *Hərbçilər birmənalı şəkildə aktiv sosial şəbəkə istifadəçiləri olmamalıdırlar*

> *Əməliyyatın planlaşdırılması və icrası zamanı kiçik bir boşluq düşmən üçün kəşfiyyat məlumatı xarakteri daşıyır*

MÜSAHİB

# Laçına böyük köç başlayır



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı

***Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin regionlara növbəti səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsi ölkə ictimaiyyətində növbəti qayıdış sevinci və güvən hissi yaratdı. Prezidentin bu çıxışı Laçın camaatı üçün xüsusi bir müjdə, öz evinə, torpağına qayıdış anonsu oldu. Ölkə başçısının dediyi "Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq. Mən artıq Dövlət Qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar. Biz yaxın zamanlarda onları öz doğma yerlərinə qaytaracağıq", - sözləri xüsusi diqqət çəkib.***

*Sus, Zabux, Ağanis və Laçının digər 125 kəndi öz yurdlarına qayıtmağı səbirsizliklə gözləyir*

▸▸ Səh. 3

MÜSAHİB



**Cümşüd Nuriyev,**
politoloq

■ Prezident həm də lal diplomatiya ilə Ermənistanı dəstəkləyən xarici qüvvələrə də anlatdı ki, biz bu məsələlərdə geri çəkilən deyilik

■ Bir gün eşidəcəyik ki, bizim axtarışa verib hələlik tutmadığımız Araiki, Balasanyanı xarici və ya erməni muzdlular özləri güllələyib

■ Rusiya "sülhməramlıları" yalnız alternativ dəhlizə yox, yola nəzarət edəcək...

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...




**30 il sonra Şuşada ilk evlilik təklifi**

GÜNÜN SİTATI

*"Britaniya Qarabağda minaların təmizlənməsi ilə bağlı Azərbaycanla əməkdaşlığı genişləndirəcək"*



**Ceyms Şarp,**
Böyük Britaniyanın Azərbaycandakı səfiri

KARİKATURA




**Torpaqdan başqa hər şeyi aparmağa çalışanlar**

# "Rusiya Donbasda soydaşlarının müdafiəsinə qalxdı"

**Rövşən Hüseynov,**
Azərbaycan Xalq Sosialist Partiyasının sədri

Müstəqillyimizin qorunması üçün heç kimi - nə İranı, nə Türkiyəni, nə Rusiyanı dəvət etmək lazımdır.

▸▸ Səh. 5

STATİSTİKA



**■ Bu ilin yanvar-iyul aylarında Azərbaycanda avtobuslarla 732 036,7 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 27,6% çoxdur.**

Hesabat dövründə minik taksilərindən 44 961,4 min nəfər istifadə edib ki, bu da illik müqayisədə 17,9% azdır. Xatırladaq ki, ötən il Azərbaycanda avtobuslarla 1 032 999,8 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 2,1% azdır. Hesabat dövründə, minik taksilərindən 86 944 min nəfər istifadə edib ki, bu da illik müqayisədə 93,5% çoxdur.



▸▸ Səh. 7

# Ali məktəblərə ixtisas seçimi

# "Siyasi partiyalar haqqında" qanun dəyişdirilsin

***Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün parlament sədrinə müraciət ediblər. Həmin müraciətə parlamentdə olmayan siyasi partiyalar da qoşulmaqla, siyahıda 29 siyasi təşkilat yer alıb. Digər siyasi partiyaların bu prosesə hansı səbəbdən qoşulmadığı başqa mövzu olaraq açıq qalsa da, siyasilərin bu qanunda hansı dəyişikliyə ehtiyac duyduğunu müzakirəyə çıxardıq... Bəzi siyasi partiya nümayəndləri və sosioloqlar müəyyən fikirlərə diqqət çəkiblər.***



## Aktual

■ **Demokratik Dəyişim Partiyası Təşkilat Komitəsinin sədri, hüquqşünas Əli Mustafa hesab edir ki, partiyaların yaradılması, qeydiyyata alınması prosedurlarının sadələşdirilməsinə ehtiyac var.**

"Siyasi partiyaların maddi-texniki bazasının yaradılmasına dövlətdən dəstək olmalıdır. Ümumiyyətlə, partiyanın yaranması, qeydiyyatı üçün üzvlərinin çox olması tələbi, ölkə ərazisini əhatə etməsi kimi məsələr əslində sovetdən qalma şablon və mürtəce maddələrdir. Yəni həttа bir neçə şəxsin bir araya gələrək partiya yaratmasına imkan yaradılmalıdır. Dövlət onu təmin etməlidir. Dövlətin niyyəti cəmiyyətin fəallaşmasına, siyasi proseslərə fəal müdaxiləsinə xidmətdirsə, eyni zamanda, cəmiyyətdə siyasi proseslərə qatılmaqda yaranmış xofu aradan götürməyə istiqamətlənməlidir".

Partiya funksioneri bu fikirdədir ki, bu da əslində Azərbaycanın güclənməsinə, cəmiyyətin daxili immunitetinin qalxmasına kömək edə bilər.

"Siyasi partiyalar haqqında" qanun siyasi partiyaların hansı ideoloji-siyasi istiqamətdə olmasından asılı olmayaraq, rəqabətlilik mühitinin yaranmasına kömək etməlidir. Elə şərait yaratmalıdırlar ki, iqtidar, müxalifət, bitərəf, neytral mövqeyindən, hansı ideologiya ilə yüklənməsindən asılı olmayaraq fəaliyyəti asan olsun.

"Bir sözlə, dəyişiklik mütərəqqi olmalıdır. Bütün dünyada insan hüquq və azadlıqlarına dair məsələ "Siyasi partiyalar haqqında" qanunda vətəndaşların öz siyasi hüquqlarını reallşdırmğa kömək edən qanunvericilik aktıdır. O da insan hüquqlarına xidmət etməlidir. Siyasi partiyaların fəaliyyəti hər formada motivasiya olunmalıdır. İnsanlar cəmiyyətə təşviq olunmalıdır. Yeni düzənin dizayn olunması dönəmində cəmiyyət nə qədər fəallaşarsa həm özü güclənər, həm də cəmiyyəti gücləndirər".

■ **Ümid Partiyasının sədr müavini Tamilla Qulami bildirir ki, "Siyasi partiyalar haqqında" qanunla bağlı dəyişikliyə ehtiyac var.**

Partiya yetkilisi istər proporsional seçki, istər seçkilərin şəffaf keçirilməsi və digər məsələlərlə bağlı hakimiyyətə təkliflərinin olduğunu desə də, Milli Məclisə edilən müraciətlə bağlı layihədə iştirak etmədiklərini qeyd edib. "Dəyişikliklərin nə olduğunu bilmirik və parlamentdə olan siyasi partiyaların müraciəti ilə əlaqədar digər bir sıra partiyaların qoşulduğu prosesdə iştirak etməmişik. Bütün hallarda bizim özümüzün dəyişikliklərlə bağlı ayrıca təkliflərimiz var".

■ **Azərbaycan Liberal-Demokrat Partiyasının sədri Fuad Əliyev hafta.az-a bildirib ki, Azərbaycanda və dünyada sosial- siyasi dəyişikliklərin inkişafı fonunda "Siyasi partiyalar haqqında" qanuna dəyişiklik edilməsi mühüm məsələdir.** Partiya sədri uzun müddətdir qanunda dəyişikliyin edilməsi ilə bağlı bir sıra təkliflərlə çıxış etdiklərini bildirib.

O bildirib ki, kimlərsə partiya yaradıb Ədliyyə Nazirliyindən qeydiyyatdan keçirsə, onun aktiv fəaliyyət göstərməsi üçün imkanlar yaradılmalıdır. Onun fikrincə, heç bir fəaliyyəti olmayan partiyalara da gərək yoxdur.

"Hesablamışıq ki, bu gün qeydiyyatda olan 58-59 partiyanın 18-19-u pis yaxşı üzdə olanlardır. Seçkilərdə iştirak edir, ölkədə cərəyan edən məsələlərə öz münasibətini bildirirlər. Qalanları iştirak etmir, heç özlərinin də maraqları yoxdur. Yaxud da həmin adamlar partiya adı ilə özlərinə biznes qururlar. Ona görə də siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üçün qanunda dəyişikliyə ehtiyac var".

*"Bir neçə şəxsin bir araya gələrək partiya yaratmasına imkan yaradılmalıdır...*

*Milli Məclisə edilən müraciətlə bağlı layihədə iştirak etmədik, amma...*

*Partiyaların qeydiyyata alınması üçün 10 min imza olsun*

*Parlament seçkilərinin formatı dəyişilsin - parlament iki yerə bölünsün*

Partiya sədri hesab edir ki, uzun müddət partiya sisteminə bu cür neqativ yanaşmaların olması istər-istəməz cəmiyyətdə siyasi partiyalara olan inamı azaldıb. Ona görə də siyasi partiyalara hörmət qaytarılmalıdır.

"Hər bir partiya öz fəaliyyəti ilə dövlətimizə, xalqımıza xeyir gətirməlidir. 2018-ci ildən başlayaraq hakimiyyətdə baş verən dəyişikliklər, Prezident Admnistrasiyasında siyasi partiyalara fərqli münasibətin göstərilməsi siyasi partiyalar institunda yeni müstəvini yaratsa da, bu qanunla tənzimlənməli və icra olunmalıdır.

Biz hesab edirik ki, qeydiyyata alınan hər bir partiyanın fəaliyyəti görünməlidir. Təklif edirdik ki, partiyaların sayı azaldılsın. Eyni zamanda bizim qeydiyyatla bağlı təklifimiz olub. İndiki qanuna görə partiyanın qeydiyyata alınmasına görə 1000 imza lazımdır. Biz təklif etmişik ki, 10 min imza olsun. Parlamentdə olan partiyalar dövlətdən maliyyələşir. Biz proporsional seçki təklif etməklə yanaşı, qeyd etmişik ki, bütün seçkilərdə iştirak edib parlamentə düşməyən partiyalar da dövlətdən maliyyələşsin. Parlamentdə üzvlərin sayının artırılması təklifini vermişik".

■ **Sosioloq-kulturoloq Aydın Xan Əbilov məsələ ilə bağlı hafta.az-a açıqlamasında Azərbaycanda siyasi partiya sisteminin, texnologiyasının sona qədər oturuşmadığını bildirib.** Onun sözlərinə görə, cəmiyyət nə qədər sosial, ictimai, siyasi sifarişləri irəli sürsə də, partiyalar klassik, Avropa texnologiyalarına cavab verən fəaliyyət formasını sərgiləyə bilmədilər. A.Əbilov bunun obyektiv, subyektiv səbəblərinə diqqət çəkib. "Azərbaycan o qədər böyük ölkə deyil ki, burada 50-dən çox partiya fəaliyyət göstərə bilsin. Bu qədər partiyanın olması cəmiyyətdə parçalanmanın səbutudur. ABŞ, Avropanın bir sıra ölkələrində təxminən 2 və 5-ə yaxın partiyalar olur. Amma həmişə iki böyük partiyanın baxışı, mübarizəsi nəticəsində siyasi texnologiyalar, siyasi innovasiyalar həyata keçirilir və dövlətin idarə olunmasında həmin partiya nümayəndələrinin rolu qabağa çəkilir". Sosioloq qeyd edir ki, Azərbaycanda iqtidar, müxalifət, iqtidaryönümlü partiyalar, bitərəf və liberal düşüncəli partiyalar mövcud olsa da bunlar klassik partiya anlamına cavab vermir. O, qeyd edib ki, üzvlük haqqının yığılmasından tutmuş, bələdiyyə, parlament, prezident seçkilərində iştirakına qədər partiyaların resursları yoxdur.

A.Əbilov bildirir ki, "Siyasi partiyalar haqqında" qanun ya işlək deyil, ya da köhnəlib. O, hesab edir ki, bütün hallarda siyasi partiyaların Milli Məclisə müraciət edərək "Siyasi partiyalar haqqında" qanuna dəyişiklik edilməsi ilə bağlı təklifləri dəstəklənməlidir.

"Ümumilikdə, Azərbaycanda siyasi innovasiyalarla bağlı yeni fikirlər yoxdur. Siyasi partiyaların bir yerə yığışması üçün ölkənin hər yerində siyasi klublar, mərkəzlər, yaxud patiya evləri olmalıdır. Qoy ən radikalından tutmuş, iqtidarına qədər gəlib orda öz fikirlərini bildirsinlər, dövlətə hökumətə öz təkliflərini versinlər. İnsanlar da müxtəlif partiya nümayəndələrinin nə istədiklərini bilsinlər. Hökumət bu partiyaların fəaliyyətini tənzimləyib onlara maliyyə dəstəyi verə bilər".

Siyasi partiyalarla bağlı qanunda dəyişiklik edilməsini normal hesab edən A.Əbilov birinci növbədə "qanunların işlək mexanizmi varmı?" sualına cavab tapılmalı olduğunu deyib.

"Partiyaların bütün seçkilərdə, ictimai nəzarət şuralarında iştirakının tənzimlənməsinin qanuna salınmasını arzu edərdik. Biz istərdik ki, parlament seçkilərinin formatı dəyişilsin - parlament iki yerə bölünsün. Milli Məclisin ilkin formatı və İctimai Palata formasında sırf partiyalardan, ictimai xadimlərindən seçilmiş intellektual liderlərin məclisi olmalıdır ki, beyin mərkəzi olaraq parlamentə qanunvericiliyin monitorinqindən tutmuş, işlək mexanizminə nəzarətə qədər təkliflər verə bilsin".

Sosialoq hesab edir ki, siyasi partiyaların fəaliyyətinin aktivləşməsi islahatlar tələb edir. Onun sözlərinə görə, hökumətin bu istiqamətdə alqışlanası addımları olsa da, azdır. "Paralel olaraq, partyalar özünün iqtidara, dövlətə olan münasibətini dəyişməlidir. Klassik partiya mübarizəsi öz yerini innovativ texnologiyalara, baxışlara verməlidir. Mütləq deyil ki, partiyalar hakimiyyət uğrunda qırğına getsin.

Siyasi partiyalar islahatları dəstəkləmək, iqtisadi inkişafı genişləndirmək, sosial rifahı təmin etmək, mədəni-intellektual inkişafa təkan vermək üçün bir növ beyin mərkəzlərinə çevrilməyi bacarmalıdırlar. Ölkədə azsaylı partyalar var ki, həqiqətən də ora intellektuallar yığışıb. Onlar da dediyimiz istiqamtdə təkliflər versə, dövlət başçısının atdığı sağlam, maraqlı addımları dəstəkləyəndə həmin insanlara "sən hakimiyyət tərəfindən ələ keçirilmisən" və sair ittihamlar səslənir. Bu yanaşmadan imtina edilməlidir. Siyasi partiya lazım gələndə tənqid, ictimai nəzarət, qınaq etməlidir, lazım gələndə iqtidarın yaxşı proqramını geniş kütləyə çatdırmaq üçün maarifçilik işləri aparmalıdır". A.Əbilov hesab edir ki, bu gün siyasi partiyaların maarifçilik missiyası sıfırdır.

"Partiyalar yalnız kimisə həbs edəndə, yaxud hansısa tanınmış kəsə "xəta" baş verəndə aktivləşirlər və başlayırlar pul buraxıb özlərini piar etməyə. Seçkilərdə aktivləşirlər. Seçki yoxdursa, partiya da yoxdur. İndi ortada partiya sədrləri və müavinləri var və onlar da yalnız internet televiziyalarında görünürlər. Rəsmi dövlət kanallarına az çağırılır, rəsmi qəzetlərdə onlar haqqında az məlumat verilir. Yəni iqtidarın dövlət büdcəsindən maliyyələşən orqanlarının da siyasi partiyalara olan münasibəti dəyişməlidir".

✍ Tahirə Qafarlı

## Müsahib

***Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin regionlara növbəti səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsi ölkə ictimaiyyətində növbəti qayıdış sevinci və güvən hissi yaratdı. Prezidentin bu çıxışı Laçın camaatı üçün xüsusi bir müjdə, öz evinə, torpağına qayıdış anonsu oldu. Ölkə başçısının dediyi "Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq.***



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı

# Laçına böyük köç başlayır

Mən artıq Dövlət Qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar. Biz yaxın zamanlarda onları öz doğma yerlərinə qaytaracağıq", - sözləri xüsusi diqqət çəkib. Bu, Laçın camaatı tərəfindən böyük qayıdış müjdəsi kimi qarşılanıb. Milli Məclisin Laçından olan deputatı Mahir Abbaszadə mövcud geosiyasi reallıqlara toxunaraq, Laçın ətrafında gedən proseslərlə bağlı hafta.az-a müsahibə verib.

***- Prezidentin Laçına qayıdışla bağlı dediyi fikirlərə münasibət bildirməyinizi xahiş edirik...***

- Prezidentin çıxışını 44 günlük müharibə, postmüharibə dövrünün reallıqları fonunda cərəyan edən mühüm prosesin nəticəsi kimi dəyərləndirirəm. Azərbaycan 44 günlük Vətən müharibəsində böyük qələbə əldə etdikdən sonra, Azərbaycan-Rusiya prezidentlərinin, Ermənistan baş nazirinin birgə imzaladığı bəyanata əsasən Qarabağda yaşayan etnik ermənilərin Ermənistanla gediş-gəlişini təmin etmək məqsədilə Laçın rayonunun şəhər mərkəzindən keçməyərək yeni bir yolun çəkilişi ilə bağlı razılıq əldə edilmişdi. Həmin sazişə uyğun olaraq Azərbaycan bu yolu yaxın 3 il ərzində çəkib istifadəyə verməyi öz öhdəsinə götürmüşdü. Azərbaycan tərəfi 9 Noyabr Bəyannaməsinin müddəlarına uyğun olaraq yeni yolun çəkilişini həyata keçirib və bizdə olan məlumata görə, avqust ayından bu məsələlər öz müsbət həllini tapmaqdadır. Hazırda Laçından Ermənistana çəkilən yeni yol keyfiyyət baxımından dünya standartlarına uyğundur. Azərbaycan tərəfi bu yolun çəkilişi ilə məşğul olur və hətta erməni bloggerləri, bəzi xəbər saytları belə həmin yolun oduqca keyfiyyətli olduğunu etiraf edirlər. Bu gün Ermənistanın özündə belə bir yol yoxdur.

Ermənistan tərəfi bu yolun çəkilişi ilə bağlı müxtəlif təxribatlar həyata keçirir, prosesə mane olmağa çalışır. Revanşist qüvvələr bu yolun perspektivsizliyi, təhlükəli olduğu ilə bağlı təbliğat işləri aparsalar da, sonda Azərbaycan tərəfinin dedikləri oldu.

*"Sus, Zabux, Ağanis və Laçının digər 125 kəndi öz yurdlarına qayıtmağı səbirsizliklə gözləyir*

Möhtərəm Prezidentin mətbuata verdiyi müsahibələrdən görünür ki, yaxın zamanlarda, avqust ayının sonlarında Laçın rayonunun mərkəzində, Zabuxda, Susda fəaliyyət göstərən sülhməramlı qüvvələr, artıq yeni yolun təhlükəsizliyi ilə bağlı fəaliyyətə başlayacaqlar. Belə olduğu təqdirdə, Laçın rayonunun şəhər mərkəzi, Sus, Zabux, Ağanis və digər kəndlər Azərbaycan tərəfinin nəzarətinə qaytarılacaqdır.

Məlumdur ki, müharibədən sonrakı müddətdə və 1992-ci ildə Laçın rayonu işğal edildikdən sonra, Ermənistan tərəfindən Yaxın Şərq ölkələrindən gətirilərək ərazilərimizdə kifayət qədər qanunsuz ermənilər məskunlaşdırılıb. İndi sülhməramlıların yeni yolun mühafizəsi ilə əlaqədar öz mövqelərini dəyişməlri ermənilərin də işğal etdikləri torpaqlardan çıxıb getmələrini şərtləndirib. Təbii ki, Ermənistan tərəfi bu gedişi də müəyyən mənada ləngitməyə çalışır. Azərbaycan tərəfinin qəti mövqeyi bir daha göstərir ki, biz cənab Prezidentin qeyd etdiyi kimi qarşıya qoyduğumuz bütün məqsədlərə zaman-zaman nail olmaqdayıq.

***- Laçının təmizlənməsi prosesi necə gedir və rayonu tərk edən ermənilərin sərgilədiyi davranış - yanğınlar, dağıntılar, təxribatçı hərəkətlər və belə bir ərəfədə sülhməramlıların sərgilədiyi yanaşma nədən xəbər verir?***

- Bu gün ermənilərin Laçından çıxarkən yanğınlar, dağıntılar törətməsinə artıq təəccüblənmirik. 2020-ci ildə əldə etdiyimiz böyük qələbədən sonra ermənilər Laçın və Kəlbəcər rayonlarından çıxarkən də belə yanğınlara, dağıntılara yol verirdilər.

Əslində, ermənilərin bizim ərazilərdə törətdiyi yanğınlar, dağıntılar rus sülhməramlılarının məsuliyyət zonasınasına daxildir və bu proses onların gözləri qarşısında baş verir. Rus sülhməramlıları Laçında törədilən bu yanğınlara, bu dağıntılara müşahidəçi qismində deyil, qarşısını almağa bilavasitə cavabdehdirlər. Çox təəssüflər olsun, rus sülhməramlıları bu missiyanı həyata keçirmirlər.

Mən sosial mediadan, mətbuatdan izlədim ki, ermənilər kəndlərimizdən çıxarkən evlərini, Zabuxa gedən yolların kənarlarındakı meşələrdə necə yanğınlar törədirlər. Təbii ki, ermənilərin istər Qarabağda, istər Şərqi Zəngəzurda 1992-ci ildən 2020-ci ilə qədər işğal etdiyi ərazilərdə törətdiyi dağıntılar, fauna və floranın məhv edilməsi, təbii sərvətlərin daşınaraq aparılması, yaşayış evlərinin, sosial obyektlərin tamamilə dağıdılıb, sökülüb aparılması ilə bağlı Azərbaycan dövləti ciddi hesablama, qiymətləndirmə aparır. Bu gün Zabuxda, Susda baş verən yanğınlar, dağıntılar da o tədqiqatlara əlavə edilməlidir ki, gələcəkdə Ermənistanın təzminat ödəməsi ilə bağlı məsələ gündəliyə gələndə bu faktlar da öz əksini tapa bilsin. Eyni zamanda rus sülhməramlılarına xəbərdarlıq edilməlidir ki, onlar ermənilərin bu cinayətlərinin qarşısını alsınlar. Eləcə də Azərbaycan dövləti ermənilərin törətdiyi bu hadisələrin qiymətləndirilməsi və belə səhvlərə, dağıntılara yol verdiklərinə görə Ermənistandan təzminatın tələb edilməsi ilə bağlı öz işlərini davam etdirməlidir.

***- Laçınlılar öz yurduna qayıdacaqlar. Bundan əvvəl rayonun infrastrukturunun bərpası, məşğulluğu, şəhər və kəndin yaşayış üçün yararlı olması vacib şərt kimi önə çıxır. Ümumiyyətlə, Laçının Baş Planı hazırdırmı və buna müvafiq olaraq qayıdışla bağlı hansı addımlar atılır və yaxud qayıdış nə vaxt başlana bilər?***

- Möhtərəm Prezdentin tapşırığına əsasən işğaldan azad olunan ərazilərin baş planlarının, ona uyğun müfəssəl planın hazırlanması ilə bağlı ciddi işlər gedir. Mətbuatdan da bildiyiniz kimi, digər rayonların müfəssəl baş planlarının təqdimetmə mərasimləri qeyd edilib. Laçın rayonunda da bu proses getməkdədir. Bizdə olan məlumata görə, Laçın şəhər mərkəzinin və bəzi kəndlərin baş planının hazırlanması ilə bağlı Şəhərsalma Arxitektura Komitəsi tərəfindən ciddi işlər getməkdədir. Bu il Laçın rayonunun 3 kəndinin baş planının hazırlanması nəzərdə tutulurdu. Bunlar Güləbird, Şəlvə, Qorçu kəndləridir ki, bu kəndlərin artıq qəsəbə formasında tikilib istifadəyə veriləcəyi qeyd olunur. Eyni zamanda, Laçın şəhər mərkəzinin və digər kəndlərinin də boşaldılması ona imkan verir ki, Şəhərsalma Arxitektura Komitəsi tərəfindən Baş Planın hazırlanması və müfəssəl planın həyata keçirilməsi təmin edilsin. İndiyədək Şəhərsalma Arxitektura Komitəsi tərəfindən müxtəlif Google və müxtəlif vasitələrdən istifadə edilərək, Baş Planın hazırlanması prosesi həyata keçirdilirdisə, artıq indi ermənilərin şəhər mərkəzindən çıxarılması nəticəsində bu məsələləri sürətləndirmək və tez bir zamanda həyata keçirilmək mümkün olacaq.

Zabux və Sus kəndləri ilə bağlı xüsusi bir yanaşma var. Bu kəndlərdə olan evlərin bəziləri istifadəyə yararlı olduğuna görə cənab Prezident tapşırıq verib ki, o yerlərə təcili insanların köçürülməsi prosesi başlansın. Bununla bir tərəfdən, orada yaşayışı təmin etmiş olaq, digər tərəfdən də biz vətəndə yaşamaq haqqımızdan istifadə edəcəyik.

***- Bir laçınlı deputat olaraq, Laçın rayonu əhalisinin öz rayonuna, öz kəndinə, öz atababa yurduna qayıtmaq istəklərini, keçirdiyi hissləri necə müşahidə edirsiniz?***

- Həm rayon mərkəzinin şəhər əhalisi, həm Sus, Zabux, Ağanis və Laçının digər 125 kəndinin əhalisi öz yurdlarına qayıtmağı səbirsizliklə gözləyir. Möhtərəm Prezidentin televiziya ilə çıxışında "Mən tapşırıq vermişəm ki, keçmiş məcburi köçkünlərin öz yerlərinə qayıtması üçün köçü təşkil edilsin" fikirləri bizim üçün çox böyük qələbə sevincidir. Cənab Prezidentin belə anonslar verməsi Böyük Qayıdışın sevincidir. Laçınlılar bugünkü günləri gördülər. Bu, Azərbaycanın gələcək inkişafından xəbər verir. Azərbaycanın qüdrətli Ordusu müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan dövlətinin gücü ilə bu ərazilərdə bərpa-quruculuq prosesləri uğurla həyata keçəcək. Azərbaycan dövləti öz gücü ilə işğala məruz qalmış torpaqları azad etdi. Məcburi qaçqın düşmüş insanlarımız Azərbaycan dövlətinin dəstəyi ilə öz torpaqlarına qayıdacaq və bu ərazilərdə yaşayıb-yaradacaq...

✍ Tahirə Qafarlı

# Multikulturalizm dövlət siyasətinin tərkib hissəsidir

## Layihə

*Bu gün Azərbaycan multikultural dəyərlərin qorunduğu unikal ölkələrdən biridir. Bunun əsas göstəricisi ölkəmizdə etnik, dini və irqi zəmində hansısa qarşıdurmanın, münaqişənin olmamasıdır. Azərbaycan multikulturalizm siyasətinin ilk dəfə meydana gəldiyi Qərb dövlətlərindən də səmərəli multikulturalizm modeli təklif edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Ölkəmiz dünyada multikulturalizm mərkəzi kimi tanınır və bu sahədəki mövqeyi yüksək qiymətləndirilir. Xarici ölkələrin mətbuatı da dəfələrlə Azərbaycanın multikulturalizm sahəsində təcrübəsinin öyrənilməsinin vacibliyini qeyd edib.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Yadigar Məmmədli qeyd edib ki, Azərbaycanda dini və milli tolerantlığın inkişafı istiqamətində görülən işlər nəticəsində Bakı sivilizasiyalararası dialoqun yarandığı, millətlərarası münasibətlərin formalaşdığı bir məkana çevrilib:**

"Ölkəmizdə multikulturalizm dəyərlərinin təbliği və həyata keçirilməsi dövlət səviyyəsində həyata keçirilməkdədir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan tolerantlıq ənənələri cənab Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilməkdədir. Cənab Prezident dəfələrlə öz çıxışlarında bildirib ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir".

Y.Məmmədli həmçinin vurğulayıb ki, ölkəmizdə bütün dinlərə yüksək diqqət və qayğı var: "Azərbaycanda bütün dini konfessiya nümayəndələri rahat şəkildə öz dini rituallarını həyata keçirirlər. Azərbaycanda 6 sinaqoq var. Bakının mərkəzində erməni kilsəsi tarixi abidə kimi qorunub saxlanmaqdadır. Bu ənənə işğaldan azad olunmuş torpaqlarda da davam etdirilməkdədir. Belə ki, mədəniyyətimizin beşiyi olan Şuşa şəhərində Yuxarı və Aşağı Gövhər Ağa məscidləri ilə bərabər, xristian kilsəsi də bərpa edilir. Azərbaycan siyasəti bundan ibarətdir ki, biz dini evlərə - kilsələrə, sinaqoqlara və s. fərq qoymuruq, onlar Allah evidir və biz onları qoruyub saxlayırıq.

Yəni, bir çox dünya ölkələrində, əsasən də qərbdə tolerantlıq və miqrasiya ilə bağlı ciddi problemlərin olduğu bir vaxtda Azərbaycan dünyada tolerantlığ örnəyi kimi tanınır. Dünyada dinlər, təriqətlərlə bağlı dövlətlər səviyyəsində böyük münaqişələr, müharibələr olur. Lakin Azərbaycanda heç bir zaman milli, dini zəmində adi münaqişəyə belə rast gəlinməyib. Tolerantlıq dədə-babalarımızdan bizə qalan mirasdır, adət-ənənədir. Bu, bir çox dünya ölkələri tərəfindən böyük maraqla qarşılanır. Azərbaycanda dini tolerantlığın yüksək səviyyədə olmasını dünyanın bir çox din nümayəndələri öz çıxışlarında hər zaman etiraf ediblər. Bütün bunlar dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilməkdədir və Prezident İlham Əliyev tərəfindən 2014-cü ildə yaradılan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi də Azərbaycanda olan bu vəziyyəti bütün dünyada təbliğ etməkdədir. Azərbaycanın multikulturalizm və tolerantlıq dəyəri hazırda dünyanın 24 ölkəsində nüfuzlu təhsil müəssisələrində tədris edilir. Bu sahədə dərsliklər yaradılıb. Dünya ölkələri hazırda "Azərbaycan multikulturalizmi" fənni vasitəsilə Azərbaycandakı multikultural dəyərləri öyrənir. Təbii ki, indiki şəraitdə buna çox böyük ehtiyac var. Amma bütövlükdə multikulturalizmin əsasını təşkil edən Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatıdır. Biz bunları toplu halda Azərbaycan multikulturalizmi adı altında təbliğ edirik".

*"Ölkəmizdə multikulturalizm dəyərlərinin təbliği və həyata keçirilməsi dövlət səviyyəsində həyata keçirilməkdədir*

Şöbə müdiri onu da deyib ki, əksər ölkələrdən fərqli olaraq Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri ölkəmizdə özlərini çox rahat hiss edirlər: " Bu dövlətimizin ayrı-ayrı xalqlara və onların adət-ənənələrinə, mənsub olduğu dinə göstərdiyi münasibətin nəticəsidir. Bu münasibət dövlətimizin, gücləməsi və müxtəlif istiqamətlərdə inkişafına töhfələr verir. Bunun da çox uğurlu nəticələri var. Mən bir misalla kifayətlənəcəm. Bilirsiniz ki, 44 günlük Vətən Müharibəsində Azərbaycanın bütün bölgələrindən dinindən, milliyyətindən asılı olmayaraq hərkəs bir yumruq ətrafında birləşmişdi. canla başla döyüşdü. Yəni, Azərbaycanda tolerant münasibət bütöv bir xalqın bir yumruq kimi birləşməsinə gətirib çıxartdı. Biz bu müharibədə şəhidlər verdik, azərbaycanlılar öz torpaqları üçün canlarını fəda etdilər. Bu şəhidlərin spektri Azərbaycanın bütün rayonlarını əhatə etdi. Həm cənubdan, həm şimaldan, həm qərbdən şəhidlər verdik. Yəni, istər talışı, istər ləzgisi, istər avarı, istər yəhudisi, istərsə də rusu, onlar hamısı özlərini bu ölkənin vətəndaşı hesab edir. Bu çox normal haldır və belə də olmalıdır. Ona görə də könüllü şəkildə bu torpaq üçün canlarını fəda etdilər.



**Anar İsgəndərov,**
Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü, tarix elmləri doktoru, professor

Bu nümunəni başqa yerdə görmək olmaz. Məhz bu səbəbdən Azərbaycan multikulturalizmin örnəyidir. Bu başqa ölkələrə örnəkdir, nümunədir. Bizim ən böyük sərvətimiz Azərbaycanda yaşayan xalqların birliyidir, məhz bu birlik dövlətimizi sarsılmaz edir, onu mübarizələrdən qalib çıxarır. Ona görə bizim gələcəyimiz bu məsələdə çox ümidlidir ki, Azərbaycanda yaşayan hər kəs milli kimliyindən asılı olmayaraq özünü azərbaycanlı kimi hiss edir, Azərbaycan dövləti, xalqı üçün fəaliyyət göstərir, onun inkişafına öz töhvəsini verir və yeri gəldikdə də hətta öz canından da keçə bilir".

**■ Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü, tarix elmləri doktoru, professor Anar İsgəndərov isə bizimlə söhbətində qeyd edib ki, Azərbaycan dünyəvi dövlətdir:**

"Tarixdən hamımıza məlumdur ki, 1918-ci ilin mayın 28-də Azərbaycan Cumhuriyyəti dünyəvi dövlət kimi elan olundu. Ən nəhayət noyabrın 9-da bu gün qürur duyduğumuz üçrəngli bayrağımız müstəqil Azərbaycan torpaqlarında dalğalanmağa başladı. Bayrağa diqqət etsək, həm müasirlik var, həm türkçülük var, həm də islam dəyərləri var. Hələ Cumhuriyyəti o zaman elan edən və 23 ay yaşayan bu dövlət tolerant bir dövlət kimi dünya işığına çıxdı və öz yerini tutdu. Təəssüflər olsun ki, sonradan Çar Rusiyası Sovet Rusiyası adı altında zühur etdi və vaxtilə Çar Rusiyası tərəfindən işğal olunan torpaqları çox mədəni şəkildə və ya güc işlətməklə yenidən özünə birləşdirdi və dövləti Sovet Sosialist Respublikaları İttifaqı elan etdi. 1991-ci ildə SSRİ dağıldı və SSRİ dağılana qədər də artıq Azərbaycanda həm dini, həm də milli tolerantlıq ənənələri yenidən cücərməyə başladı. Bu fikri niyə işlədirəm? 1920-ci ilin aprel işğalından sonra Cümhuriyyətin din və dövlət münasibətləri ilə bağlı hansı xeyirxah, səmimi, xalqın və dövlətin maraqlarına xidmət edən qanunları var idisə, bunlar hamısı sovet dövləti tərəfindən ləğv olundu.

Sovet dövləti dinə müharibə elan etdi, Qafqaz Müsəlmanları Ruhani İdarəsi ləğv etdi, Azərbaycanda Allahsızlar Cəmiyyətini təşkil etdi, məscidlər bağlandı, məhv edildi və s. Təbii ki, 1934-cü ildə Bibiheybət məscidinin partladılması, məhv edilməsi Azərbaycan tarixinin ən ağrılı hadisələrindən biridir. Ancaq Azərbaycan xalqı bu mübarizədən qalib çıxdı. Və 91-ci ildən sonra isə din və dövlət münasibətləri o qədər səmimiləşib ki, bəzən kənardan baxanlar buna təəccüblənirlər. Dövlət din üçün, dini dəyərlər üçün nə mümkünsə, onları da edir. Əgər bu gün 2500-ə qədər məscid fəaliyyət göstərirsə, sovet dövründə onların sayı 17-i idi. Ən nəhayət Azərbaycan tarixində yox, ümumiyyətlə dünyəvi dövlət tarixinin ilk hadisədir ki, Azərbaycanda İlahiyyat İnstitutu yaradılıb. Onun bütün təminatı dövlətin üzərindədir. Azərbaycanın adət-ənənələri, dini dəyərləri ilə bağlı hansı bayramlar varsa, o bayramlar Ümumxalq bayramıdır. Və dövlət rəhbərləri də, o cümlədən ümummilli lider Heydər Əliyev bu məsələlərə xüsusi diqqət yetirirdi. Azərbaycana yenidən hakimiyyətə gəlişinə qədər hələ Prezident səlahiyyətlərini yerinə yetirərkən Təzə Pir məscidində olan çıxışı, sonrakı dövrdə Bibiheybət məscidinin bərpası, açılışı, yəni, onlarla deyil, yüzlərlə məscidin açılışında ümummilli liderin çıxışı, qayğısı və bu xoş ənənələri davam etdirən Azərbaycanın dövlət başçısı İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva. Bu insanlar dövlət və din münasibətlərinin inkişafı və tolerant cəmiyyətin yaranması üçün əllərindən gələni edirlər. Ona görə Azərbaycana kimlər gəlirsə, bu mühiti görəndə deyirlər ki, Azərbaycan dünya üçün nümunədir, dünya Azərbaycanın təcrübəsindən istifadə edə bilər və istifadə etməlidir".

Millət vəkili vurğulayıb ki, ölkəmizdə millətlərarası münasibətlər də yüksək səviyyədədir: "Bir misal çəkim. 2020-ci ilin 44 günlük müharibəni udan, qalib gələn, faşist ermənilərin darmadağın edən Azərbaycan xalqı və içində olan millətlər qalib gələnlər bir-birindən soruşurdularmı ki, sən hansı millətdənsən?. Sən tatsan, talışsan, ləzgisən, avarsan, türksən? Əlbəttə ki, yox. Çünki tarix boyu bu xalqlar bir yerdə formalaşıblar, uğurları da, qələbələri də, sevincləri də bir olub. Ümumi düşmənə qarşı mübarizədə də bir olublar. Bu mübarizədə şəhidləri də bir olub, yaralıları da bir olub, qaziləri də bir olub. Bu mənada Azərbaycan xalqı nümunədir".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# "Növbəti hərbi əməliyyatlar daha sərt olacaq..."

***Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində Qarabağda yaşayan ermənilər i düzgün addım atmağa səsləməsi ictimaiyyət tərəfindən maraqla izlənir, ermənilərin bundan sonra hansı addımları atacağı birmənalı qarşılanmır. Məlumdur ki, dövlət başçısı Qarabağda yaşayan ermənilərə yönəlik bir sıra mesajlar verib və onları mövcud reallıqla barışmağa dəvət edib. Bir daha bəyan edib ki, ermənilərin Azərbaycan daxilində nə statusu olacaq, nə müstəqilliyi, nə də ki, hansısa xüsusi imtiyazı...***

## Aktual



Azərbaycandan rəsmi olaraq ermənilərə yönəlik səslənən sülh, birgə yaşayış çağırışları, bu gün təxribatlarla, evlərin yandırılması ilə qarşılanır. Bu cür faktlar regiondakı vəziyyəti hansı istiqamətə aparır, hərbi təxribatlar səngiyəcəkmi?

**■ Hərbi təhlilçi Alp Arslan İmamqulu hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycan 10 Noyabr razılaşmasına müvafiq olaraq bütün öhdəlikləri yerinə yetirib.** Onun sözlərinə görə, xüsusilə Laçın yoluna alternativ yolun açılması o deməkdir ki, Laçın, Zabux, Sus yaşayış məntəqələri tez bir zamanda boşaldılmalıdır. Çünki bu yaşayış məntəqələrində qanunsuz məskunlaşmalar 1994-cü ildən etibarən həyata keçirilmişdir. Mövcud vəziyyətdə isə üçtərəfli sazişin tələbləri ardıcıl olaraq yerinə yetirilir.

"Proseslərə bu zəmində baxılarsa, artıq insanlarımızın qayıdış proqramı çərçivəsində öz doğma vətənlərinə qayıtmaları qaçılmazdır". Hərbi təhlilçi qeyd edir ki, prosesin gedişatında hər zaman olduğu kimi dırnaqarası Ermənistan respublikasının təxribatları artıb. Lakin baş verən təxribatlarda düşmən öz layiqli cavablarını aldı. Onun fikrincə, "Qisas", antiterror əməliyyatlarını bu müstəvidə qiymətləndirmək olar. "Öz revanşist fikirlərini davam etdirən Ermənistan düşmənçilik mövqeyindən əl çəkmir. Separatçı qruplar bundan sonrakı dönəmdə də bu cür təxribatlara əl atmaq istəsələr təkrar düşünməlidirlər. Çünki Azərbaycanın növbəti əməliyyatları daha sərt, daha qətiyyətli olacaq".

A.A.İmamqulu ermənilərə qanunsuz məskunlaşdıqları əraziləri tərk etmələri üçün bəlli bir vaxtın qoyulduğunu deyib. Onun fikrincə, Azərbaycan xalqı da mərhələli şəkildə öz doğma yurdlarına dönməlidir: "Bu mütləqdir, qaçılmazdır və burada artıq geriyə dönüşü yoxdur". Hərbi təhlilçi bildirib ki, "Azərbaycan xalqının öz yurdlarına geri dönməsi",

*"Canlı şəhidlər və tarixi faktlar sübut edir ki, soydaşlarımız İrəvandan, Göyçədən, Vedibasar-dan-Qərbi Zəngəzurdan sadəcə evlərini tərk edib çıxmayıblar*

deyərkən bu qayıdış məsələsi sadəcə Qarabağ və ondan kənarda işğal altında tutulan ərazilərimizə deyil, eyni zamanda indiki Ermənistan sərhədləri daxilində qalan tarixi Qərbi Azərbaycandan didərgin düşən insanlarımız üçün də keçərlidir. Hansı ki, milyonlarla soydaşımız öz tarixi torpaqlarından müxtəlif dövrlərdə didərgin salınıblar.

"Canlı şəhidlər və tarixi faktlar sübut edir ki, soydaşlarımız İrəvandan, Göyçədən, Vedibasardan-Qərbi Zəngəzurdan sadəcə evlərini tərk edib çıxmayıblar. Qərbi Azərbaycandan didərgin salınan soydaşlarımız, soyqırımlara, qətliamlara məruz qoyularaq zorla öz torpaqlarından uzaqlaşdırılıblar. Təbii ki, vaxt gələcək onlar da öz doğma yurdlarına qayıdacaqlar".

✍ **Tahirə**

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiyanın Ermənistandakı səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə nota verib. Bu barədə Rusiya səfirliyinin Mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, nota İrəvanın "Surmalu" ticarət mərkəzindəki partlayışla bağlı Ermənistan KİV-nin Rusiyanın fərqli strukturlarını ittiham etməsinə görə verilib.

■ İyul ayında İsveçdə ərzaq məhsulları və alkoqolsuz içkilərin qiymətində artım 13,5% təşkil edib. Bu, rekord göstərici hesab olunur. Bu barədə "İsveç ərzaq mağazaları" təşkilatının press-relizində deyilir. "İnflyasiya hərəkətverici amildir", - təşkilatın başçısı Karin Brünell deyib.

■ Şimali Koreya yeni raket sınaqları keçirib. Hərbi sınaqlar zamanı Sarı dənizə doğru 2 qanadlı raket buraxılıb.




■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu respublika üzrə avqust ayının pensiya ödənişini yekunlaşdırıb. Avqustun 9-da Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə, ötən gün isə ölkəmizin digər bölgələri üzrə pensiyalar, habelə güzəştli şərtlərlə təyin edilmiş pensiyalar tam ödənilib. Vətəndaşlar pensiyalarını bank kartları vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

■ "Space X" və Tesla şirkətlərinin sahibi olan amerikalı sahibkar İlon Mask İngiltərənin "Mançester Yunayted" futbol klubunu almaq niyyətində olmadığın bildirib. O klubu almaq barədə "Twitter" hesabında yazdığı sözləri zarafat adlandırıb. İlon Mask heç zaman idman klubu almayacağını bəyan edib.

■ Krım körpüsü qanuni hədəfdir. O, məhv edilməlidir. Bu barədə Ukrayna Prezident Ofisinin rəhbərini müşaviri Mixail Podolyak Guardian qəzetinə müsahibəsində bildirib. O yaxın aylarda Krımda yeni partlayışların anonsunu edib və Rusiya qüvvələrində xaos yaratmaq üçün Qərbdən daha çox ağır artilleriya sistemlərinin verilməsini istəyib.



■ İlin əvvəlindən ölkə əhalisinin sayı 29418 nəfər və ya 0,3 faiz artaraq 2022-ci il iyul ayının 1-i vəziyyətinə 10185784 nəfərə çatıb. Əhalinin 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri təşkil edib. Hazırda hər 1000 kişiyə 1001 qadın düşür. Bir kvTrendadrat kilometrə düşən əhalinin sayı 117 nəfər olub.

■ İngiltərənin "Kristal Pelas" klubunun futbolçusu Yoahim Andersen və ailəsi ölümlə təhdid olunub. 26 yaşlı hücumçu bu barədə sosial şəbəkə hesabında bildirib. Danimarkalı oyunçu "Liverpul"la 1:1 hesablı heç-heçə etdikləri Premyer Liqanın II tur matçında baş verənlərə görə təzyiqlə üzləşdiyini yazıb:

# Ordumuz "Ekoloji qisas" əməliyyatı keçirməlidir



**Cümşüd Nuriyev,**
politoloq

***Politoloq Cümşüd Nuriyev hafta.az-a budəfəki müsahibəsində Laçın şəhəri və Zabuxda qanunsuz məskunlaşmış ermənilərin köçürülməsi, alternativ Laçın yolunun çəkilməsindən sonra ətrafdakı digər kəndlərin sakinləri olan məcburi köçkünləri narahat edən məsələlər, İrəvandakı "Sürməli" ticarət mərkəzindəki partlayışla bağlı mümkün versiyalar və s. gündəmdə olan mövzulardan bəhs edib.***

## Müsahib

***- Cümşüd bəy, hazırda Azərbaycan xalqının gündəmində olan əsas məsələ Laçın şəhəri və Zabuxda qanunsuz məskunlaşmış hayların çıxarılmasıdır. Sizcə, Azərbaycan dövləti onların avqustun 25-dək torpaqlarımzdan çıxarılmasına nail olacaq, yoxsa yenə də hansısa maneələr ortaya çıxacaq?***

- Azərbaycan Prezidenti son Şirvan səfəri zamanı İsmayıllının Basqal qəsəbəsində çox maraqlı bir açıqlama verdi. Əslində bu, Ermənistana və onu dəstəkləyənlərə ciddi bir mesaj idi. Dövlət başçısı bildirdi ki, avqustun 25-dək ermənilər Laçın şəhəri və Zabux kəndindən çıxmalıdır və həmin müddət onların xahişi ilə verilib.

Dövlət başçısı ermənilərin çıxdıqları məkanları yandırmayacaqları haqda da fikirlər söylədi. Amma onu da qeyd etdi ki, bu, onların özlərindən gələn bir məsələdir. Azərbaycan onsuz da əvvəldən bilir ki, onlar verdiyi sözə əməl etmir. İndi də elə oldu. Bütün dünya bilir ki, bu haylar xəstədir. Onsuz da Laçın camaatı, zabuxluların Zabuxda ermənilərin saldığı qəsəbədə yaşamaq fikirləri yoxdur. Deyirlər ki, haylar tərəfindən tikilməsi və orda yaşamaqları bir yana, həm də o qəsəbə kəndin köhnə qəbiristanlığı üzərində salınıb. Bu haqda yerli sakinlərdən mediaya açıqlama verənlər də olub... Bu və digər səbəblərdən belə baxanda hayların çıxdıqları evləri yandırıb-yandırmamasının Laçın camaatı üçün elə bir əhəmiyyəti yoxdur. Görünən odur ki, laçınlılar, o cümlədən Zabux kəndinin əsil sakinləri artıq toparlanıb və bütün ağır obyektiv şərtlərə baxmayaraq hamısı geri - öz tarixi dədə-baba torpaqlarına dönməyə hazırdır. Bu, çox müsbət bir haldır. Yəni Laçın camaatı o əvvəlki qeyrətdə, iradədə, qürurdadır. Çox xoş bir haldır ki, 30 ildən çox vaxt keçməsinə rəğmən bu insanların öz doğma yurdlarına dönmə əzmi, iradəsi sınmayıb. İnanıram ki, tezliklə Laçının nəinki rayon mərkəzi və Zabux kəndinin, bütün digər kəndlərinin də sakinləri öz dədə-baba ocaqlarına dönəcək...

Rusiyanın "dırnaqarası" sülhməramlılarına gəldikdə, onlar son 1 il 10 ay ərzində öz lazımı missiyalarını yerinə yetirmədilər və bu gün də ermənilərin Laçın və kəndlərində törətdikləri vandallıqlara, o cümlədən meşələrimizi yandırmalarına göz yummaqda davam edirlər. Digər tərəfdən, dünyaya hüquq dərsi keçən Rusiya və ATƏT-in Minsk qrupunun digər həmsədr ölkələri bir daha utansınlar ki, bu 30 ildən çox müddətdə həmin hayların Azərbaycan torpaqlarında qanunsuz yerləşdirilməsinə də göz yumdular və beynəlxalq hüququ çiğnadılar, tapdadılar. Bu gün ATƏT, BMT və digər beynəlxalq təşkilatlar nəinki evlərin, meşələrimizin də yandırılmasına göz yumurlar. Bu baxımdan hesab edirəm ki, Azərbaycan ordusu bir "Ekoloji qisas" əməliyyatı da keçirməlidir. Sadəcə, snayper və kəşfiyyatçılarımız bütün Qarabağ və Şərqi Zəngəzurda, xüsusən ermənilər oralardan çıxana qədər Laçın və Zabux ətrafındakı meşələrə ciddi nəzarət etməlidirlər. Meşələrimizi yandırmağa cəhd edən şəxslərə xəbərdarlıq edilməli və hərbçilərin əmrinə tabe olmadıqları təqdirdə yerlərindəcə güllələnməlidir... Dünya bu saat ekologiya ilə bağlı ciddi problemlərlə üzləşib. Odur ki, ermənilərin meşələri yandırmaları əslində beynəlxalq bir cinayət kimi dəyərləndirilməli və günahkarlar ciddi cəzalandırılmalıdır. Prezident İsmayıllıdakı çıxışında "Qisas" əməliyyatı məsələsini gündəmə gətirdi və hazırda erməni ictimaiyyətində ikinci "Qisas" əməliyyatının başlayacağından ciddi əndişə və qorxu yaranıb. Və bilirlər ki, ikinci "Qisas" əməliyyatı birincidən daha qorxulu olacaq. Prezident də son çıxışında qeyd elədi; artıq "Qisas" əməliyyatında Sarıbaba, Qırxqız, Buzdux və s. yüksəkliklər azad edildikdən sonra Azərbaycan ordusu Laçın "dəhlizi", o cümlədən Laçın şəhərini tamamilə nəzarətə götürüb. Ümumiyyətlə, Xankəndi və Ağdərə də, demək olar ki, nəzarətimizdədir. Ayın 25-ə artıq 9 gün qalıb. Həmin müddətdə ermənilər Laçın və Zabuxu tərk edəcəklər. Mən buna tam əminəm... Yaxşı bilirlər ki, artıq Azərbaycan əvvəlki Azərbaycan deyil...

***- Erməni mediasında belə bir fikirlər də yayılır ki, guya avqustun sonunda keçiriləcək üçtərəfli komissiyanın görüşündə Ermənistan Rusiyanın dəstəyi ilə Laçın və Zabuxdan köçün 2-3 ay uzadılmasına nail olacaq. Yəqin ki, Azərbaycan tərəfi belə bir məsələyə heç bir halda qol qoymaz?..***

- Xeyr. Azərbaycan tərəfinin buna qol qoyması mümkün deyil. Həm də ona görə ki, Prezident elan etdi ki, ermənilərin xahişindən sonra biz Laçından köç məsələsini avqustun 25-dək uzatdıq. Dövlət başçısı başqa bir mesaj da verdi. İlham Əliyev dedi ki, hansısa kənar müdaxilələr, hansısa zənglər 100 minlik ordunun qarşısını ala bilməyəcək. Yəni dövlət başçısı artıq qəti mövqeyini birmənalı şəkildə bildirdi. Mən başqa bir şey də gördüm. Ərdoğanın Putinlə və İlham Əliyevin Ərdoğanla son görüşlərindən sonra dövlət başçısının Quzey Azərbaycanın min illik dövlətçilik təcrübəsinə malik qədim Şirvan torpağında və məhz Azərbaycan gerbindəki rəmzlərimizdən biri olan palıd ağacının yanında verdiyi açıqlamaları təsadüfi saymıram. Buna "lal diplomatiya" deyirlər. İlham Əliyev çox ustalıqla lal diplomatiyadan istifadə edir. Yəni görünən odur ki, Azərbaycan Prezidenti Qarabağla, Laçınla bağlı məsələlərdə iradəsini qoymaqla yanaşı, həm də çox arxayındır. Öz sözünə arxayındır.

Qürurla danışmaq, iradəli danışmaqla yanaşı, bir özünə əminlik, özünə güvən var çıxışlarında... Bir sözlə, Prezident həm də lal diplomatiya ilə Ermənistanı dəstəkləyən xarici qüvvələrə də anlatdı ki, biz bu məsələlərdə geri çəkilən deyilik. Özü də elə başa düşürəm ki, dövlət başçısı konkret olaraq Laçınla bağlı mövqe və qərarlarında hər hansı bir dəyişiklik etməyəcək. 10 noyabr bəyanatından az sonra Laçın rayonu ərazisində hava limanının tikilməsi, Laçında hərbi hissələrin yerləşdirilməsi və onlar üçün binaların tikilməsi, Laçının baş planının hazırlanması, Kəlbəcərdən Laçına yeni yol çəkilməsi və s. göstərir ki, Laçının bir neçə istiqamətdə tam təhlükəsizliyi təmin olunur...

***- Laçın və Zabuxdan köçməli olan hayların bəziləri deyir ki, biz Qarabağda qalacağıq. Və həmin məntəqələrdəki qondarma erməni "mer"lərin mediaya verdiyi məlumata görə, guya artıq bir neçə ailə Xankəndinə köçüb və otellərə yerləşdirilib... Əslində Azərbaycan dövlətinin bu prosesə də nəzarət etmək hüququ var. Yəni 30 ildən çoxdur torpaqlarımızda qanunsuz məskunlaşmış və xeylisi də xaricdən gəlmə olan haylar indi də öz bildikləri kimi, istədikləri yerdə məskunlaşa bilməzlər ki?***

> "*Prezident həm də lal diplomatiya ilə Ermənistanı dəstəkləyən xarici qüvvələrə də anlatdı ki, biz bu məsələlərdə geri çəkilən deyilik*

- Əvvəla, bu, haylar üçün baş tutan sevda deyil. Azərbaycan tərəfi buna da imkan verməyəcək. İkincisi də artıq "Qisas" əməliyyatından sonra Şuşa rayonunun Salatınkənd, yaxud Sarıbaba adlanan keçmiş "Yextsaox", eləcə də Böyük və Kiçik Qaladərəsi kəndlərindəki haylar arasında elə bir təşviş yaranıb ki, onlar nəinki Laçın və Zabuxdan köçəcək soydaşlarını qəbul etmək, özləri həmin kəndlərdən köçməyə hazırlaşırlar. Onlar qorxuya düşüblər ki. Bizi burada heç kəs: nə Ermənistan, nə də Xankəndidəki qondarma rejim qoruya biləcək. Sarıbaba və Qırxqız da azad edildikdən sonra Xankəndi və Şuşa ətrafındakı haylar yaşayan bütün kəndlər ovuc içi kimi ortada qalıb... Hətta bildiyimə görə, Xankəndi və Ağdərədən də tədrici köç başlayıb...

Azərbaycan dövlət başçısı son çıxışında Qarabağda qalacaq ermənilərə nəinki heç bir status verilməyəcəyini, onların digər Azərbaycan vətəndaşlarından heç nə ilə seçilməyəcəyini deyəndən sonra haylar bütün ümidlərini itiriblər... Bilirsiniz, bu dəqiqə ermənilərin əsas işi-gücü Rusiya "sülhməramlı"ları vasitəsilə Qarabağdakı xarici muzdluları çıxarmaq problemini həll etməkdir. Rusiya özü "Vaqner" muzdlularını tam çıxarıb torpaqlarımızdan...

***- Siz hesab edirsiniz ki, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indiyədək "vaqner"çilər olub?***

- Bəli. Rusiya onları 44 günlük savaş zamanı torpaqlarımıza yerləşdirib. İndi də istəmirlər ki, Azərbaycan ordusunun əlinə qeyri-qanuni yollarla, sənədlərlə gəlmiş bir rus keçsin... Ümumiyyətlə, son məlumatlara görə, II Qarabağ müharibəsi zamanı Qarabağa toplanmış 18 min ümumi silahlıdan təxminən 3-5 min nəfər qalıb. Qarabağdakı ermənilərdən isə uzağı, 1000-2000 nəfər silahlı var. Qalan 1000-2000 nəfər "PKK", "YPQ" və "PJK" ünsürləridir. Eyni zamanda Livandan olan onlarla erməni muzdlusu qalıb. Bəzi erməni saytlarının yazdığına görə, hazırda Ermənistan və Xankəndindəki separatçı-terrorçu qurum o muzdlulara vəd etdikləri aylıq muzdu - 1000-1500 dolları ödəyə bilmədiklərindən həmin terrorçular etiraza qalxıb. Xaricdəki erməni diasporu Qarabağ üçün ianə toplamaqdan imtina edib. Onlar deyir ki, on illərlə toplayıb yolladığımız milyonlarla bir iş görə bilməmisiz, bizə kələk gəlmisiz. Hazırda ermənilərin elitası sayılan qüvvələr: erməni kilsəsi, "daşnaksütyun" və "ASALA" arasında ciddi gərginlik var. Hər biri öz maraqlarının ödənilməsini tələb edir. Bilirsiniz, para elə bir şeydir ki, qardaşı-qardaşa düşmən edir - qalmışdı erməni ola... Hazırda kilsə deyir ki, pul vermirəm- yığılmayıb. Separatçı rejimə yalnız bir az Amerikadakı ermənilər birliyi - "ANCA" yardım edir, bir də Rusiyadakı milyarder Ara Abramyan. Onların da resursları tükənmək üzrədir. Bir yandan da xarici muzdlular hesablarını tələb edir. Paşinyan həmin muzdlulardan tam imtina edib, deyir ki, kim sizi Qarabağa gətirib, probleminizi onunla həll edin. Ortada qalıb Araik Arutyunyan, Vitali Balasanyan və s. kimi separatçı rejim rəhbərləri. Belə getsə, inşAllah, Qarabağdakı separatçı, terrorçu qruplar özləri bir-birilərini qıracaqlar. Bir gün eşidəcəyik ki, bizim axtarışa verib hələlik tutmadığımız Araiki, Balasanyanı xarici və ya erməni muzdlular özləri güllələyib...

***- Alternativ yolun çəkilişindən sonra Laçın və Şuşa sakinlərini narahat edən əsas məsələlərdən biri də həmin yola yenidən hər tərəfdən hava xətti ilə 2,5 kilometrlik məsafə olmaqla 5 km.-lik dəhliz statusu veriləcəyi halda Laçın rayonunun Ağanus, Unannovu, Mığıdərə, Məlikpəyə, Malxələf, Şuşa rayonunun Zarıslı, Zamanpəyəsi, Xəlfəli, Qaybalı və s. kəndlərinin həmin dəhliz ərazisində Rusiya hərbi kontingentinin və dolayısıyla ermənilərin nəzarəti altında qalmasıdır...***

- Əslində, həmin 5 km.-lik dəhliz məsələsini nə Rusiya, nə də Ermənistan həll edir-bunu Azərbaycan dövləti həll edir. Əvvəllər də dediyimiz kimi, beynəlxalq hüquq baxımından Rusiya "sülhməramlı"larının Azərbaycan torpaqlarında yerləşməsi üçün heç bir hüquqi mandatı yoxdur. Sadəcə, 10 noyabr üçtərəfli bəyata-razılaşması var ki, onu da Azərbaycan parlamenti ratifikasiya etməyib. Nə də BMT Rusiya hərbçilərinə hər hansı mandat verib. Odur ki, Azərbaycan istədiyi vaxt "sülhməramlı"ların ölkə ərazisindən çıxmasını tələb edə bilər. Bəyanatın da belə bir xüsusiyyəti var ki, hər bir tərəf istənilən vaxt oradan çıxa bilər. Hətta hər hansı bir dövlətin könüllü qoşulduğu və parlamet tərəfindənn təsdiqlənmiş beynəlxalq müqavilələrdən istənilən dövlət 6 ay müddətində çıxa bilər... Yəni əgər Rusiya "sülhməramlı"ları Azərbaycanın ərazi bütövlüyünə hər hansı bir müdaxilə etsə, Azərbaycan birtərəfli qaydada həmin bəyanatdan imtina edə bilər. Digər tərəfdən, 22 fevral 2022-ci ildə bağlanmış müqaviləyə görə də Rusiya Azərbaycana müdaxilə edə bilməz. Eyni zamanda 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsinə görə, Türkiyə də Azərbaycanın qarantıdır... Rusiya da ağlını o dərəcədə itirməyib ki, Qarabağdakı 3-4 erməniyə görə Ukraynada bataqlığa düşdüyü indiki onsuz da ağır vaxtında Türkiyə ilə qarşıdurmaya gedə... Putinə özü üçün ikinci cəbhə açmağa ehtiyac yoxdur... Bir sözlə, hesab edirəm ki, qalan 2-3 illik müddətdə Rusiya hərbi kontingenti yalnız alternativ yola nəzarət edəcək, heç bir dəhlizdən söhbət gedə bilməz...

***- İrəvanda "Sürməli" ticarət mərkəzindəki partlayışla, eləcə də şəhərdəki bütün metro stansiyalarına guya partlayıcı qoyulması haqda xəbərlərlə Qarabağda, Laçında baş verənlər arasında bir əlaqə varmı? Bəzi erməni siyasiləri bu hadisədə Rusiya izi axtarırlar. Hətta Rusiya bununla bağlı Ermənistana nota da verdi...***

- Hadisənin Rusiya tərəfindən törədilməsi haqqında hələlik heç bir sənəd-sübut yoxdur. Belə hesab edirəm ki, bunları Ermənistan Milli Təhlükəsizlik xidməti təşkil edib. Lakin üzlərinə-gözlərinə bulaşdırıblar. Bütün metro stansiyalarında partlayış baş verəcəyi xəbəri çox şişirtmə olub... Bunlar "Sürməli" ticarət mərkəzindəki partlayışı boyunlarına almırlar. Tiqran Abramyan, Zohrabyan kimiləri bunu Azərbaycanın təhlükəsizlik xidmətlərinin üzərinə atmağa çalışırlar və bununla bizimkilərin şöhrətini daha da artırıblar. Bütün dünya bilir ki, bu, ağ yalandır. Azərbaycan dövləti Ermənistan kimi şərəfsizlik edib siyasətini dinc, mülki insanları məhv etmək üzərində quran deyil. Bu bədbəxtlər onu da anlamırlar ki, belə dezinformasiyalarla ermənilər arasında təşviş yaradırlar və hayların nəinki Qarabağdan Ermənistandan da birdəfəlik köçməsinə də şərait yaradırlar...

***✍ Sultan Laçın***

# "Rusiya Donbasda soydaşlarının müdafiəsinə qalxdı"

***Bölgəmizdə hər birimizi yaxından maraqlandıran proseslər cərəyan etməkdədir. Yeni Laçın yolu məsələsi, Ermənistanda baş verən partlayışlar, davam edən Ukrayna-Rusiya müharibəsi... Bu və digər məsələlərlə bağlı hafta.az-a müsahibə verən Azərbaycan Xalq Sosialist Partiyasının sədri Rövşən Hüseynov fərqli fikirlər söyləyib.***



**Rövşən Hüseynov,**
Azərbaycan Xalq Sosialist
Partiyasının sədri

## Müsahib

***- Rövşən müəllim, bu gün Laçın dəhlizi istiqamətində cərəyan edənlər regionda gedən hansı prosesin davamıdır?***

- Əvvəla, müharibəyə torpaqlarımızı işğaldan azad etmək üçün getdik. Prosesə beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin yanaşması fərqli oldu. Məhz regionun əsas güc dövlətləri - Rusiya və Türkiyə bu müharibədə çox yaxından köməklik etdilər. Azərbaycanın önəmli olduğunu anlayan Rusiya 44 günlük müharibədə Azərbaycanın öz torpaqlarını azad etməsinə şərait yaratdı. Proseslər göstərir ki, Paşinyan hakimiyyətinin məqsədlərindən biri bu məsələni həll etmək, Rusiyanın təsiri altından çıxmaqdır. Yaxın vaxtlarda Ermənistan Gümrüdə olan rus hərbi hissələrinin ərazini tərk etməsini istəyəcək. Bu, Qərb tərəfindən Ermənistanın üzərinə qoyulan tələbdir. Laçında davam edən proses bir neçə il əvvəl Paşinyan və komandasının Şuşada getdikləri "Yallı" ilə başlamışdı. Paşinyan o zaman Azərbaycanı dəvət edirdi ki, "gəlin"... Paşinyan hakimiyyəti gözəl başa düşürdü ki, münaqişəli məsələni həll etmək lazımdır. Ondan əvvəl Sarkisyan, Köçəryan hakimiyyətləri Qarabağ klanı üzərindən hakimiyyətə gəldikləri üçün revanşist çıxışlarından əl çəkmirdilər. Əks-halda, hakimiyyətdə olmaları da mümkün deyildi. Qarabağ məsələsini gündəmdə saxlayıb, bundan alver məqsədilə istifadə etmək istəyirdilər. Bir həftə öncə Ermənistan silahlı qüvvələrinin rəhbəri bəyanat verdi ki, erməni silahlıları Qarabağ ərazisindən çıxmalıdır. Qarabağda bir neçə yüz erməni separatçısı Ermənistan rəhbərliyinə tabe olmur.

Bunun da arxasında müəyyən qüvvələr durur. Onlar gözəl başa düşürlər ki, Laçın dəhlizini boşaldacaqlar. Vəziyyət ona doğru gedir ki, Azərbaycan qısa müddətdə Xankəndini nəzarətə götürəcək. Son günlər bir neçə erməninin Azərbaycan Prezidentinə müraciəti elə-belə deyildi. Bunun da arxasında nəsə durur.

***- Rusiyanın regionda əsas güc olduğunu qeyd etdiniz. Rusiyanın sülhməramlı kontingentinin məsuliyyəti var. Rusiya prosesə necə təsir, yaxud nəzarət etməlidir?***

- Təsir deyil, regionda sabitliyin qorunmasına nəzarət etməlidirlər. Bu da reallıqdır ki, əgər sülhməramlı qüvvələr o zaman Qarabağa gəlməsəydilər, proseslər tamam başqa istiqamətdə gedərdi. Bu gün sülhməramlıların orada olması normal prosesdir. Sülhməramlıların regionda qalmasını uzatmaq lazım deyil. Azərbaycan müstəqil ölkədir və azad etdiyi yerlər öz əraziləridir. Azərbaycanın iqtisadi, siyasi cəhətdən tam imkanı var ki, əraziləri özü müstəqil bərpa etsin, infrastrukturu özü qursun. Sülhməramlıların Qarabağda 2 ildən artıq saxlanmasına ehtiyac yoxdur. Sülhməramlılar zamanı gələndə Azərbaycan torpaqlarını tərk etməlidirlər. Azərbaycan Ordusunun öz sərhədlərini qorumağa imkanı var. Müstəqilliyimizin qorunması üçün heç kimi - nə İranı, nə Türkiyəni, nə Rusiyanı dəvət etmək lazımdır...

> "*Müstəqilliyimizin qorunması üçün heç kimi - nə İranı, nə Türkiyəni, nə Rusiyanı dəvət etmək lazımdır*

***- Regionumuzu tərk etmək Rusiyanın maraqlarına uyğundur?***

- Rusiyanın regionda maraqları var. Azərbaycanda deyil, Ermənistanda, Gürcüstanda, Moldovada da maraqlıdır. Ukraynada gedən müharibə, Orta Asiyada yaranan vəziyyət Rusiyanın maraqları kontekstində baş verir. Rusiya çalışır ki, hər regionda təsirini saxlasın. Gürcüstan Rusiya hərbi qüvvələrini ərazilərindən çıxardı. Azərbaycanla bağlı məsələ fərqlidir. Azərbaycan Rusiya ilə müttəfiq ölkədir. Ukrayna-Rusiya müharibəsi başlamamışdan öncə cənab Prezident Putinlə mühüm bir sənəd imzaladı. Bu sənədin imzalanması o demək idi ki, Rusiya Azərbaycana keçmişdə olduğu kimi, "kiçik qardaş" kimi deyil, müttəfiq kimi yanaşır. Bu da ondan irəli gəlir ki, son illər Azərbaycan iqtisadiyyatını, ordusunu inkişaf etdirə bilib. Regionun qaz-neft sahəsində Azərbaycan mühüm rol oynayır.

***- Laçının boşaldılmasında Rusiya sülhməramlılarının rolu var?***

- Laçında gedən o proseslər məhz Azərbaycan Ordusu tərəfindən irəliyə aparılır. Bu proses müəyyən zaman öncə razılaşdırılmış məsələdir. Putinin Ərdoğanla İranda görüşü və əldə olunan razılaşmalar imkan verdi ki, növbəti proseslər yaransın. İran bu prosesdə Azərbaycana qarşı qərəzli mövqe tutmayıb. Rusiya, Türkiyə, həm də İran Azərbaycanı siyasi proseslərdə dəstəkləyir və çalışır ki, regionda ölkəmizə qarşı müsbət rol oynasın. Bu prosesdə Rusiya 44 günlük müharibədə olduğu kimi, kənarda dayanacaq.

***- Bu ölkənin sakitcə kənarda dayanması inandırıcı görünmür. Rusiya Azərbaycandan nə istəyir?***

- Avropa tətbiq olunan sanksiyalarla Rusiyanın iqtisadi vəziyyətini zəiflətməyə çalışır. Nəhəng Rusiyanın özünün iqtisadi potensialı çox böyükdür. Avropa bu sanksiyalarla Rusiyaya zərər vermək istəyirdisə, daha çox özü zərər gördü. Rusiyanın inkişafı davam edir və ona yaxın müttəfiqlər lazımdır. Bu müttəfiq rolunu Azərbaycan oynayır. Məsələn, meyvə-tərəvəz sahəsində Rusiya bazarları Azərbaycan üçün açıqdır. Azərbaycan məhsulları Rusiya bazarına buraxılmırdısa, inid yaşıl işıqdır. Rusiyaya valyuta gətirən ölkələrdən biri də Azərbaycandır. Müttəfiqlik sazişinin Ukrayna-Rusiya müharibəsindən iki gün qabaq imzalanması təsadüfi deyildi.

***- Ukrayna-Rusiya müharibəsi kifayət qədər uzandı. "Ukrayna hücuma keçib, üstünlüyü ələ alıb", yaxud "Rusiya məğlub olarsa, nə baş verə bilər?", "Qalib olarsa, nə baş verər?" tipli suallar ətrafında mediada aparılan müzakirələri müşahidə edirik. Bir çoxları burada Rusiyanı məğlub hesab edir, digərləri də Ukraynanı. Bu müharibəyə baxışınız?***

- Əvvəla, Ukrayna - Rusiya qarşıdurması müharibə yox, xüsusi əməliyyatdır. Hələ 90-cı illərin sonunda Krımın Ali Sovetinin sədri Qraçla beynəlxalq tədbirlərin birində görüşdüm. O qeyd edirdi ki, Ukraynanın Krıma ögey münasibəti var. Yəni dövlət büdcəsindən ayrılan vəsait Krıma yetmir, orada yaşayan əhalinin sosial vəziyyəti daha ağırdır, maaşlar azdır... Qraç deyirdi ki, bu, partlayışa gətirib çıxaracaq. O vaxtlar Krımda olanda əhali ilə görüş zamanı bunu hiss edirdim. Ukrayna buna önəm verməli idi. Ukrayna hökuməti 2014-cü ildən bu yana öz məkrli fikirləri ilə yaşayırdı. Bunların əsas fikirləri ondan ibarət idi ki, Qərbə doğru getsinlər. Ona görə ki, Qərb bunlara çox şey vəd etmişdi?

***- Sizcə, hansısa müstəqil dövlətin müstəqil siyasət yürütmək istəyi "məkrli" fikirdir?***

- Xeyr. Məsələn, Ukraynanın NATO-ya daxil olması 2014-cü ildən müzakirə olunur. Bu günədək NATO-ya qəbul olunmayıb. Ondan başqa Avropa İttifaqına daxil olması o vaxtdan Ukrayna cəmiyyətində müzakirə olunsa da, bu da baş vermədi. Mən özüm 6-7 ay Ukraynada oldum və orada gedən prosesləri daxildən izləyirdim. Siyasətçilərlə, politoloqlarla görüşürdüm. Bu gün Ukrayna-Rusiya arasında dediyimiz bu xüsusi əməliyyat ondan irəli gəlir ki, Ukrayna insanların problemlərinin həllinə deyil, Qərbin istəklərinə doğru getdi. Bu barədə Azərbaycan cəmiyyətində fərqli fikirlər var. Məsələn, mən Donbas, Luqanskda olmuşam. Onların yaşadıqları problemləri görmüşəm - insanların evləri dağıdılır, zərər yetirilir. Rusiya bu məsələni açıqladı və Avropaya mesajlar göndərdi ki, bu problemləri bir yerdə həll etmək lazımdır. Qərb buna üz çevirdi. Nəhayət, Rusiya orada əhalinin müdafiəsinə qalxdı. Donbas, Luqanskda əhalinin 90 faizi rusdur. Rusiya öz soydaşlarının müdafiəsinə qalxdı. Ukrayna hakimiyyəti istəsə idi, məsələ tezliklə həll oluna bilərdi. Sadəcə olaraq Qərb buna imkan vermir. Qərb üçün əsas məqsəd ondan ibarətdir ki, Ukraynanı silahla təmin etsin, yeni silahlarını Ukrayna meydanında "yoxlasın". Regionda gedən prosesin arxasında Qərb durub. Dəfələrlə Rusiya məsələ qaldırıb ki, gəlin müzakirə edək, məsələni tamamlayaq. Qərb buna imkan vermir. Qərbin məqsədi Ukraynanı müdafiə etmək deyil, Rusiyanı çökdürməkdir. Ukrayna onlar üçün əlverişli olduğuna görə, prosesi Ukraynada başladılar. Ondan öncə bunu Belarusda başlamaq istədilər. Orada Lukaşenko buna imkan vermədi. Vətənini sevən, xalqını sevən insan məhz belə etməli idi.

***- Rusiya o ərazilərdə yaşayan soydaşlarını müdafiə etmək üçün xüsusi əməliyyata başladı. Mən başqa ölkədə öz soydaşlarını müharibə etməklə müdafiə etməyin məntiqini anlamadım. Bu, müdafiədir, yoxsa öldürməkdir?!***

- Bu xüsusi əməliyyat başlayarkən Rusiya ordusu Donbas və Luqansk vilayətlərinə daxil olmurdu. Ukraynaya hücum etməyi deyil, prosesləri danışıqlarla həll etməyə çalışırdılar. Sonra Ukraynanın silahlı qüvvələri Donbas, Luqansk vilayətlərinə hücumlara başladı. Rusiyanın həmin ərazilərə daxil olması birtərəfli deyildi. Luqansk və Donbasın rəhbərləri Rusiyadan xahiş etmişdilər ki, yardım edilsin. İlk öncə ora silah göndərildi. Luqansk və Donetsk vilayətlərinə hücumlar başlayandan sonra Rusiya öz silahlı qüvvələrini ora daxil etdi. Burada kimsə qalib, kimsə məğlub olmayacaq. Proses sona doğru gedir. Rusiyanın burada şərti ondan ibarətdir ki, Ukrayna Luqansk, Donetsk "Respublika"larının müstəqillyini tanısın. Bu vilayətlər respublika kimi fəaliyyət göstərməyəcək. Rusiyanın tərkibinə daxil olub, onun regionu olacaq. Ukrayna hakimiyyətini bu, qıcıqlandırır. Ona görə də bu məsələdə nə məğlub, nə də qalib var.

***- "Rusiyanın öz soydaşları uğrunda xüsusi əməliyyatlara başlaması" ilə bağlı dediyiniz məqam Rusiyanın bir qədər əvvəl Qarabağda apardığı ruslaşma siyasəti ilə təkrarlanma niyyəti güdə bilərmi? Məsələn, ruslar erməniləri Qarabağa köçürdü, onlara rus pasportu payladı, rus mərkəzi yaratdılar. Bu ona görə edilə bilərmi ki, sonradan "öz soydaşlarını müdafiə etmək" bəhanəsi ilə burada qalsınlar və bildiklərini etsinlər?***

- Ukraynada olan prosesləri Qarabağda gedənlərlə əlaqələndirmək düzgün deyil. Qarabağda həmin problem yoxdur və olmayacaq da. Rusiyanın biznes elitasında belə fikir var ki, Azərbaycanla danışıqlara getsin və Qarabağda müəyyən infrastrukturların, biznes sahələrinin yaranmasında tam şəkildə iştirak etsin. Rusiya rəhbərliyi başa düşür ki, Azərbaycanın torpaqları qaytarılıb, bir də o məsələlərə qayıtmaq mümkün deyildir...

***✍ Tahirə***

# Neft bazarında dəyişən qiymətlər

*İlin əvvəlindən qiyməti sürətlə bahalaşmağa başlayan "qara qızıl" son günlər dəyərdən düşməkdədir. Hazırda dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 0,50 ABŞ dolları, yaxud 0,53 faiz azalaraq 94,11 ABŞ dolları təşkil edir. Hərraclarda "Brent" markalı neftin oktyabr fyuçersləri 92,34 ABŞ dollardan satılıb. Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 faizdir.*



## İqtisadiyyat

Azərbaycanın builki dövlət büdcəsində isə bir barel neftin orta qiyməti 85 ABŞ dolları götürülüb. Yeri gəlmişkən qeyd edək ki, 2022-ci ilin ikinci yarısından neftin uçuzlaşa biləcəyi proqnoz edilirdi.

Hətta bu yaxınlarda ilin birinci yarısının yekunlarına həsr olunan müşavirədə ölkə Prezidenti də dünyada gözlənilən iqtisadi böhrana toxunmuşdu və vurğulamışdı ki, resessiya baş verərsə, ilk növbədə neftin qiymətinə mənfi təsir göstərəcək. Ona görə də gələn ilin büdcəsində neftin qiymətinin düzgün seçilməli olduğunu önə çəkmişdi.

Maraqlıdır, əgər böhran baş verərsə büdcədə neftin orta qiyməti neçədən nəzərdə tutulmalıdır ki, proqnoz özünü doğrultsun? İlin sonuna doğru neft bazarında qiymətlər hansı formada dəyişə bilər? Neftin yenidən kəskin bahalaşması gözlənirmi? Azərbaycanın bu il neftdən əldə edəcəyi gəlirlərin həcmi təxminən nə qədər olacaq?

■ **Məsələni hafta.az-a şərh edən Neft Araşdırmaları Mərkəzinin rərbəri İlham Şaban bildirib ki, dünya bazarında neftin qiymətinin bahalaşması Rusiya faktorundan qaynaqlanırdı:**

"Bu ilin ikinci ayında Rusiyanın Ukraynaya hərbi müdaxiləsi başladı. Güman edilirdi ki, bu müdaxilə maksimum bir həftə ərzində bitəcək. Sonra münaqişə uzunmüddətli dövrü əhatə etdi və nəticə etibarilə bütün ticari əlaqələr zəncirini pozdu. Təbii ki, mövcud risklər, emosionallıqlar bazara kifayət qədər təsir etdi və neftin qiyməti yüksək həddə qalxdı.

Martın 7-də neft 139 dollara qədər bahalaşdı. Ondan sonrakı dövrlərdə biz artıq neftin qiymətinin ucuzlaşmasını, ancaq iyun ayının əvvəlində yenidən yüksəlməsini müşahidə etdik. Bu da müharibənin yeni bir dalğası idi və ikinci bir tərəfdən artıq təkrar qiymətdə enmə müşahidə edirik. Nəyə görə belə oldu? İlk növbədə dünya üzrə bütün iqtisadi göstəricilər aşağı səviyyədə korrektə olundu. Yəni, dünyanın iqtisadi inkişaf tempi azalacaq, bununla da az həcmdə enerji lazım olacaq. İkinci bir tərəfdən son bir həftədə açıqlanan məlumatlardan məlum oldu ki, bazara kifayət qədər neft çıxarılır və bu neft həcmləri 2019-cu il həcmlərinə bərabərdir. Baxmayaraq ki, Rusiyanın nə qədər təhdidləri oldu, digər ölkələr, o cümlədən ABŞ, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, həttaİran belə bazara kifayət qədər neft çıxarıblar. Bu neftin qiymətinin 10 dollardan çox ucuzlaşmasına gətirib çıxardı. Sonrakı ucuzlaşma isə hansı ki, neftin qiymətini 95 dollardan aşağı saldı, Çinin neftin idxalını azaltması ilə bağlı xəbəri oldu".

Ekspert vurğulayıb ki, ilin sonuna olan proqnozlara görə, dekabr ayına neftin qiymətləri 70-75 dollara qədər ucuzlaşa bilər: "Ancaq ümumilikdə cari il üçün neftin orta qiymətinin 95 dollardan aşağı olmayacağı proqnoz edilir. Bu mənada Azərbaycan üçün hansısa təhlükə yoxdur. Əgər qiymətlərə baxsaq, görərik ki, gərək neftin dəyəri 40 dollara qədər ucuzlaşsın ki, biz həyəcan təbili çalaq. Büdcəyə son dəyişikliklər zamanı maliyyə naziri belə bir rəqəm açıqlamışdı ki, ilin 6 ayında neftin orta qiyməti 103 dollar olub. Hansı ki, bu müddətə qədər büdcədə qiymət 50 dollardan proqnoz edilmişdi. Yəni, bizim üçün hazırda kifayət qədər təhlükəsizlik yastığı mövcuddur. Və Azərbaycan həmin vəsaitlərdən rassional şəkildə istifadə etməlidir. Əgər biz Dövlət Statistika Komitəsinin məlumatlarına baxsaq, bu ilin 7 ayının yekununa görə, büdcənin profisiti 2,1 milyard manatdır. Yəni, bizim gəlirimiz xərcimizdən daha çoxdur".

> *Dünyanın iqtisadi inkişaf tempi azalacaq, bununla da az həcmdə enerji lazım olacaq*

> *Azərbaycan ixracatının 85 faizdən çoxunu neft və neft məhsulları təşkil edir*

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib ki, ümumiyyətlə, neft bazarında volatillik davam edir**

"Son 1 ayın statistikası göstərir ki, neftin dünya bazarındakı qiymətində 14 faizə yaxın azalma qeydə alınıb. Düzdür, dünya bazarında neftin qiyməti hər barel üçün 90 dollardan yüksək satılır. Amma nəzərə alsaq ki, Rusiya-Ukrayna müharibəsindən sonra uzun müddət neftin bazarda qiyməti hər barel üçün 100 dollardan yüksək idi. Ona görə də bu baxımdan təbii ki, istisna deyil ki, xüsusən də növbəti neftə olan tələbin azalması fonunda qiymətlərin yenidən dəyişməsi mümkündür. Təbii ki, neft bazarı həm də siyasi faktorlarla əlaqəlidir. Ona görə də birmənalı şəkildə qiymətlərin necə dəyişəcəyini proqnozlaşdırmaq praktik olaraq mümkün deyil. Aparıcı neft şirkətləri belə qiymətləri proqnozlaşdırmır. Volatillik yüksəkdir, istənilən zaman bazardakı dəyişikliklər qiymətlərə təsir göstərir. Sözsüz ki, növbəti ilin büdcə layihəsində də neftin dünya bazarındakı qiyməti daha konservativ götürülməsi məqsədəuyğundur. Xüsusən nəzərə alsaq ki, hətta Rusiya-Ukrayna müharibəsi davam etsə də belə, amma müharibənin enerji bazarlarına təsirləri getdikcə minimumlaşır. Bu kontekstdən növbəti ildə də mövcud durum neft bazarlarına daha az təsir göstərə bilər. Düşünürəm ki, büdcəyə sonuncu dəyişikliklərdən sonra müəyyənləşdirilmiş qiymətdən, yəni 85 dollardan daha aşağı qiymətin gələn ilin büdcəsində proqnoz edilməsinə ehtiyac var. Bu nəticə etibarilə büdcə layihəsinin konservativliyinin və reallığının möhkəmləndirilməsi baxımından da vacibdir. Digər tərəfdən, neftin qiyməti Azərbaycan üçün vacibdir.

Azərbaycan ixracatının 85 faizdən çoxunu neft və neft məhsulları təşkil edir. Ona görə də neftin dünya bazarında qiymətinin artması ölkəyə daha çox vəsaitin daxil olması və o cümlədən Neft Fondunun gəlirlərinin artmasına imkan yaradır. Amma Azərbaycan yüksək qiymətlər daha sonrakı dövrdə azalmalarla müşahidə olunduğu üçün daha stabil qiymətlərdə maraqlıdır. Son statistika göstərir ki, məhz neft ölkələri üçün daha məqbul qiymət hər barel üçün qiymətin 80-90 dollar intervalında dəyişməsidir".

✍ *Sevinc*

# Ermənilərin xəyallarına son qoyuldu

**Regiondakı vəziyyət, xüsusən də Laçın dəhlizi və alternativ yolun çəkilişi ilə bağlı cərəyan edən proseslər müxtəlif aspektlərdən təhlil olunmaqdadır.**



Laçına qayıdış prosesinin başlanması, vaxtilə qeyri-qanuni şəkildə işğal altında olan rayonlarımıza köçürülən ermənilərin ərazilərimizi tərk etməsi dövlət sərhədlərimizin bütövlüyü, suverenliyimizin bərpası, eləcə də Ermənistanın sülhə gətirilməsi istiqamətində hansı əhəmiyyətə malikdir?

■ **Politoloq Aytən Qurbanova bildirir ki, Laçın dəhlizinə alternativ yolun çəkilməsi 10 noyabr bəyanatında təsbit olunmuş ən mühüm məsələlərdən biridir.** Onun sözlərinə görə, Prezidentin dəfələrlə ifadə etdiyi kimi, bu məsələ onun şəxsi təşəbbüsü ilə üçtərəfli bəyanatda əks olunmuş və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasından sonra məcburi köçkünlərin öz torpaqlarına geri qaytarılması və ümumilikdə, regionda sülh quruculuğu prosesinin sürətləndirilməsi məqsədilə atılmış kifayət qədər mühüm addımdır.

"Azərbaycan tərəfi hər zaman olduğu kimi, artıq öz üzərinə götürdüyü öhdəliyi vaxtında icra edərək yolun Azərbaycan Respublikasının ərazisindən keçən hissəsinin inşasını başa çatdırıb və təbii olaraq da sülhməramlıların nəzarət etdiyi postların yerlərinin dəyişdirilməsi və Laçın şəhərində qeyri-qanuni məskunlaşmış erməni əhalinin çıxarılması tələbini açıq şəkildə bəyan edib. Əslində, bu prosesin sürətli şəkildə həyata keçirilməsi eyni zamanda, ermənilərin danışıqlar prosesində Zəngəzur dəhlizindən istifadə edərək Laçın dəhlizinin alternativ yola keçirilməsinin qarşısını almaq xəyallarına da birdəfəlik son qoydu. Nəticə etibarilə, Ermənistanın istəyindən asılı olmayaraq Azərbaycan öz maraqlarına zidd atıla biləcək istənilən təxribat addımlarının qarşısını almağa qadir dövlət olduğunu növbəti dəfə nümayiş etdirərək həm Ermənistana, həm də onu himayə edən tərəflərə açıq mesaj vermiş oldu". A.Qurbanova eyni zamanda hesab edir ki, İrəvanda baş verən hadisələrin nəticələrinin deyil, ehtimal olunan səbəblərinin birbaşa və dolayı yolla həm Azərbaycan Respublikasının, həm də regionun digər dövlətlərinin təhlükəsizliyinə hədə təşkil edən məsələləri özündə ehtiva etməsi faktı istisna edilmir. "Çünki kifayət qədər çox şübhəli məqamlar var və düşünürəm ki, bu məqamlar öz təsdiqini tapdığı halda Ermənistanın regionda terroru dəstəkləyən dövlət olması faktını artıq bütün dünya dövlətləri qəbul edərək ona qarşı adekvat şəkildə preventiv addımların atılması üçün ortaq mövqe nümayiş etdirəcək".

> *Ermənistanın istəyindən asılı olmayaraq Azərbaycan öz maraqlarına zidd atıla biləcək istənilən təxribat addımlarının qarşısını almağa qadir dövlət olduğunu növbəti dəfə nümayiş etdirdi*

✍ *Tahirə*

## ELAN

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 02/1 Lot üzrə Hərrac 29.08.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: İsrafilova Arzu Xanoğlan qızına məxsus Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Aşıq Pəri küçəsi 53 ünvanda yerləşən 0,0428 ha torpaq sahəsi (fərdi yaşayış evinin tikintisi təyinatlı) ilkin qiyməti - 85 500 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ013501000000-00036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 03/1 Lot üzrə Hərrac 29.08.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: Əliyev Zöhrab Zülfi oğluna məxsus Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yerləşən 0,12 ha torpaq sahəsi (fərdi yaşayış evinin tikintisi təyinatlı) ilkin qiyməti - 108 000 manat.

Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ013501000000-00036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>



■ **Yanvar-iyul aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 802 min şəxsə sosial müavinət və təqaüd ödənilib.**

Bu barədə hafta.az-a Nazirlikdən xəbər verilib. Bildirilib ki, onlardan 441 min nəfəri sosial müavinətlə, 361 min nəfəri Prezidentin aylıq təqaüdü ilə təmin olunub. Əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 35 faiz çox olmaqla 465 mln. manat, Prezident təqaüdləri üzrə 27 faiz çox olmaqla 308 mln. manat ödənilib. Bu ilin 7 ayında 153,8 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 374,5 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.



■ **Yeni məktəbli formalarında bütün ölçülərdə uzunqol və qısaqol köynəklərin qiyməti 14 manatdır, şalvar və ətək isə 25 manata alıcılara təqdim olunur. Bu barədə Trend-in suallarıın cavablandırarkən "Bakı Tikiş Evi" ASC-nin satış şöbəsinin müdiri Etibar Əzimov bildirib.**

O qeyd edib ki, hazırda yalnız aşağı siniflər (I-IV) üçün formalar hazırlanıb. Zaman az olduğu üçün yuxarı siniflər üçün hələ ki, forma hazırlanmayıb. "Geyimləri Bakı Tikiş Evi ilə yanaşı bir neçə gün ərzində paytaxtda fəaliyyət göstərən "Bravo" supermarketlər şəbəkəsindən əldə etmək mümkün olacaq",- deyə o əlavə edib. Xatırladaq ki, yeni məktəbli formaları artıq bu gündən satışa çıxarılıb.



■ **Məlum olduğu kimi, bir sıra media və sosial şəbəkə səhifələrində Fövqəladə Hallar Nazirliyinin bir neçə əməkdaşının intim xarakterli video və fotoları yayılmışdır.**

Baş Prokurorluqdan hafta.az-a verilən məlumata görə, qeyd edilən və digər oxşar məzmunlu faktlarla bağlı hazırda Baş Prokurorluq tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq araşdırmalara başlanılaraq aidiyyəti dövlət qurumlarına müvafiq sorğular verilməklə zəruri prosessual hərəkətlər yerinə yetirilir. Araşdırmaların nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.



■ **Bu ilin iyul ayında Azərbaycan mobil internetin sürətinə görə digər ölkələr arasında 2 pillə geriləyib və 31,21 MB/S sürətlə 60-cı pillədə qərarlaşıb. Bu barədə "Report" "Speedtest Global Index"ə istinadən xəbər verir.**

Məlumatda deyilir ki, ötən ay Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə dünyada 121-ci yerdə qərarlaşıb ki, bu da iyun ayı ilə müqayisədə 3 pillə geriləmədir. İyulda ölkədə sabit genişzolaqlı internetin orta sürəti 20,89 MB/S olub. Sabit genişzolaqlı internetin sürəti ilə bağlı dünyanın 182 ölkəsində araşdırma aparılıb. Birinci yerdə Çili (212,98 MB/S), sonuncu yerdə isə Əfqanıstan (1,85 MB/S) qərarlaşıb.



■ **Avqustun 17-də səhər saatlarında kənd təsərrüfatı məhsulları daşıyan 4 yük gəmisi Ukraynanın Çernomorsk və Odessadan yola düşüb. Hafta.az xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Nazirliyinin "Twitter" profilində məlumat yerləşdirilib.**

Gəmilər günəbaxan tumu və günəbaxanla yüklənib. Hazırda humanitar dəhlizlə kənd təsərrüfatı məhsullarının tədarükü planlı şəkildə həyata keçirilir. Bu gəmilər İstanbula gedəcək və orada Birgə Koordinasiya Mərkəzinin nümayəndələri tərəfindən yoxlanılacaq. Qeyd edək ki, artıq bir müddətdir Türkiyənin təşəbbüsü ilə İstanbulda əldə olunan razılaşmalara əsasən ÜUkraynadan taxıl və digər ərzaq məhsullarının dəniz yolu ilə dünya bazarlarına çıxarılmasına başlanılıb.



■ **Bu ilin yanvar-iyul aylarında Azərbaycan 144 894,18 min ABŞ dolları dəyərində 39 388,19 ton alüminium və ondan hazırlanan məmulatları ixrac edib.**

Dövlət Gömrük Komitəsindən hafta.az-a bildirilib ki, hesabat dövründə Azərbaycanın ixrac etdiyi alüminium və ondan hazırlanan məmulatların dəyəri 2021-ci ilin müvafiq göstəricisi ilə müqayisədə demək olar ki 2 dəfə, həcmi isə 29% artıb. Məlumata görə, hesabat dövründə alüminiumun ümumi qeyri-neft sektoru üzrə ixracda payı 8,61% təşkil edib. Xatırladaq ki, ötən il Azərbaycan 188 529,24 min ABŞ dolları dəyərində 67 354,77 ton alüminium və ondan hazırlanan məmulatları ixrac edib. Hesabat dövründə, Azərbaycanın ixrac etdiyi alüminium və ondan hazırlanan məmulatların dəyəri 2020-ci ilin göstəricisi ilə müqayisədə 66,2%, həcmi isə 12,6% artıb.

# Fermerin taxılı satmaq problemi olmayacaq

***Rusiya və Ukrayna arasında davam edən müharibə nəticəsində bir çox ölkələrin taxıl təminatında ciddi problemlər yaranıb. Qeyd edək ki, Azərbaycan da ənənəvi olaraq taxılı Rusiyadan alır. Prezident İlham Əliyev bu yaxınlarda Dövlət Televiziyasına müsahibəsi zamanı bildirib ki, Azərbaycanda taxılla təminat sahəsində heç bir problem yoxdur. Dövlət başçısı vurğulayır ki, Azərbaycan ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alır:***

## Kənd təsərrüfatı



"Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm də taxıl ixrac ediləcək və edilir. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, artıq biz özümüz də gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal edilir". Prezident Əliyev bildirir ki, bu amillər reallıqdır: "Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün əməli işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik".

Xatırladaq ki, Azərbaycan Dövlət Statistika Komitəsinin "Azərbaycanın ərzaq balansları" adlı statistik məcmuəsində dərc edilən məlumata əsasən, Azərbaycanın buğda tələbatı, təxminən, 3,1 milyon tondur. Ölkədə istehsal olunan buğdanın illik həcmi, təxminən, 1,9 milyon ton, idxal isə 1,3 milyon tona yaxındır. Məlumatda deyilir ki, Azərbaycanın ərzaq buğdası ilə özünü təminetmə səviyyəsi orta hesabla 59.5 faiz təşkil edir, tələbatın təxminən 40-45 faizi idxal hesabına ödənilir. Azərbaycanın buğda idxal etdiyi əsas ölkələr Rusiya, Qazaxıstan və Ukrayna olub. Yeri gəlmişkən, Rusiya Taxıl İttifaqı bu il oktyabrın 4-7-dək Bakıda "Qlobal Taxıl Görünüşü" adlı XII Beynəlxalq Taxıl Ticarəti Konfransı keçirəcək. Qurumun məlumatında deyilir ki, Azərbaycanın unikal coğrafi mövqeyi var: "Azərbaycanın unikal coğrafi mövqeyi bu ölkəni Qara dəniz, Asiya və Yaxın Şərqin taxıl bazarları arasında əlaqə kimi nəzərdən keçirməyə imkan verir. Azərbaycanın İslam dünyası ilə Qara dəniz regionu ölkələri arasındakı pozitiv imici bu ölkəni "Taxıl qapısı" kimi seçməyə imkan verir".

*Dövlət fermerlərdən 68 qəpiyə taxıl almağı nəzərdə tutur*

*Taxıl və un məhsullarının təkrar ixracı üzərində İqtisadiyyat Nazirliyinin nəzarəti var*

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov bildirir ki, son illər Azərbaycanda ərzaqlıq buğda istehsalının stimullaşdırılması üçün ciddi addımlar atılır:** "Gələn ildən Prezident İlham Əliyevin "Azərbaycanda ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" imzaladığı Fərmana əsasən, ölkədəki bəzi buğda istehsalçılarına subsidiyalar yeni qaydada veriləcək. İlkin mərhələdə pilot layihə olaraq, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Dövlət Ehtiyatları Agentliyinə, un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya 5 il müddətində məhsul subsidiyası tətbiq ediləcək. Eyni zamanda, səhv etmirəmsə, dövlət fermerlərdən 68 qəpiyə taxıl almağı da nəzərdə tutur. Yəni, fermerin taxılı satmaq kimi bir problemi olmayacaq. Bunlar olduqca vacib addımlardır və fermerləri daha çox ərzaqlıq buğda istehsal etməyə sövq edəcək".

Ekspert omu da vurğulayıb ki, ötən ilə qədər Azərbaycanda taxıl əkini sərfəli deyildi: "Məhsuldarlıq az olurdu, aqrotexniki qulluq düzgün aparılmırdı, əldə olunan məhsul ucuz satılırdı və s. Ona görə fermerlər başqa istiqamətlərə maraq göstərirdilər. Qeyd etdiyim qərarlardan sonra vəziyyət ciddi şəkildə dəyişəcək və ölkədə bu addımlar ərzaqlıq buğda istehsalına müsbət təsir göstərəcək. O ki qaldı siyasi məqamlara, ölkə Prezidenti açıq şəkildə bəyan edib ki, bu istiqamətdə hansısa problem yoxdur. Nəzərə alsaq ki, bizim də əsas taxılımız Rusiyadan gəlir. İnanıram, Prezidentin də vurğuladığı kimi, bu sahədə hansısa problemimiz olmayacaq".

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Xalid Kərimli deyir ki, Azərbaycan taxıla olan ümumi ehtiyacının 57-58 faizini daxili yığım hesabına həyata keçirə bilir: "Hasilatdan asılı olaraq yerdə qalan taxılı xaricdən idxal edirik. 40-42 faiz taxılı müxtəlif ölkələrdən idxal edirik ki, burada əsas yeri Rusiya tutur.**

Yəni ərzaq üçün taxılı Rusiya, Ukrayna və Qazaxıstandan idxal edirdik ki, indiki məqamda Ukraynanı bu sıralamadan çıxarırıq. Rusiya və Qazaxıstanla əlaqələrimiz qaydasındadır. Məlum məsələlərə görə heç bir dünya ölkəsi Ukrayna ilə ixracı təşkil edə bilmir. Bütün bunlara baxmayaraq, Azərbaycanda taxıl problemi gözlənilmir. Hələ 8-9 aylıq buğda ehtiyatımız var. Eyni zamanda, taxıl və un məhsullarının təkrar ixracı üzərində də İqtisadiyyat Nazirliyinin nəzarəti var. Yəni narahatlığa əsas yoxdur. Hələlik isə ümumi şəkildə bahalaşma riski ilə üzləşə bilərik".

Onun sözlərinə görə, hökumətin qarşısına qoyduğu əsas məqsəd ərzaqlıq buğdanın təminat səviyyəsini 75 faizə qədər qaldırmaqdır: "Bizim işğaldan azad olunmuş ərazilərimiz olduqca bərəkətlidir, iqlim və torpaq taxıl istehsalını artırmaq üçün əlverişlidir. Bunlar isə dövlətin diqqətindədir. Ona görə də istehsalı artırmaq üçün müxtəlif addımlar atılır ki, bunlardan biri də subsidiya məbləğinin artırılmasıdır. Əvvəl subsidiya əkin sahəsinə görə verilirdi, yaxşı deyildi, fermeri məhsuldarlığı artırmağa həvəsləndirmirdi. İndi isə subsidiya məhsula görə verilir, əgər çox məhsul istehsal edirsənsə, daha çox subsidiya əldə edirsən".

✍ ***Sevinc***



## Ağ adam

*(Rəşad Məcidin doğum gününə)*

Tanrı mayasını tutubdu "ağ"la,
Torpağı ağ, sümüyü ağ, sözü ağ.
Sən bu hekayətə ya gül, ya ağla,
Bu adamın əyrisi ağ, düzü ağ.

Ağoğlanda göz açıbdı dünyaya,
Ağ doğulub, nur saçıbdı dünyaya,
Ağ qalacaq, and icibdi dünyaya,
Sözün tutub; alnı açıq, üzü ağ.

Ağdam adlı məmləkətin uşağı,
Burda çözüb min-bir türlü tuşağı,
Çox dinləyib "dastan" deyən "aşığı";
Hekayətin mini qara, yüzü ağ.

Ağcabədi, mədəniyyət beşiyi,
Yurd yeridi, çəkilibdi keşiyi,
Sadə olub daim evi, eşiyi,
Məqamında kürsüsü ağ, mizi ağ.

Ustac deyir; tam arınıb bu adam,
Ağayana, mərd tanınıb bu adam,
Yarananda, ağ yaranıb bu adam,
Ağ adamdı; "dirsəyi ağ", "dizi ağ".

**Qeyd:** 21 avqust dəyərli ziyalımız - yazıçı, jurnalist, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü - Rəşad Məcidin doğum günüdür. Şad günü münasibətilə Rəşad müəllimi təbrik edir, cansağlığı, uzun ömür və bütün fəaliyyətində uğurlar arzulayırıq. Rəşad müəllim 58-i tamamlayaraq, 59 yaşınına qədəm qoyur. "60"la bağlı "Yazarlar"ın xüsusi "Ağ adam" adlı təbrik layihəsi var. Bu layihədə iştirak etmək istəyən hər kəs Rəşad Məcidin həyat və yaradıcılığı barədə olan yazılarını zauryazar@mail.ru <mailto:zauryazar@mail.ru> e-mail ünvanına göndərə bilərlər. Bütün materiallar 01.08.2022-ci ildən 01.08.2023-cüilədək qəbul ediləcək. Yazılarınızı gözləyirik.

***Zaur USTAC,***
***"Yazarlar" jurnalının baş redaktoru, şair-publisist.***

# Ali məktəblərə ixtisas seçimi

**Avqustun 16-dan ali təhsil müəssisələrinə tələbə qəbulu üzrə ixtisas seçimi başlayıb. Qeyd edək ki, ixtisas seçimi bütün qruplar üzrə 2022-ci il avqustun 28-dək internet vasitəsilə aparılacaq. İxtisas seçmək hüququ olan abituriyentlər müsabiqə şərtini ödədikləri ixtisas qrupuna (qruplarına), o cümlədən altqrupuna (altqruplarına) aid olan 15-dək ixtisasın kodunu qeyd edə bilərlər.**



İxtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasların kodlarını eservices.dim.gov.az/erizebak/ixtisas1 internet ünva□nında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər. İmtahan verdikləri ixtisas qrupu (altqrupu) üzrə müsabiqə şərtini ödəyən abituriyentlər həmin qrup (altqrup) üzrə ixtisas seçmək hüququ əldə edirlər. Abituriyent ixtisas seçimi edərkən bu ixtisas üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyən abituriyent həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və birinin qarşısında dövlət sifarişi əsasında, digərinin qarşısında isə ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Seçiləcək ixtisas kodlarını, onların sayını və ardıcıllığını abituriyent özü müəyyənləşdirir. Bəs, görəsən, bu il ən yüksək rəqabət hansı qruplarda və ixtisaslardadır? Ümumiyyətlə, hazırda qəbul planında lazımsız ixtisaslar mövcuddurmu? Bu ixtisaslarla bağlı hansı qərarlar qəbul olunmalıdır? Təhsil sistemində ixtisas seçimi hansı formada tətbiq edilməlidir və bu sahədə hansı çatışmazlıqlar var? Əvvəlcə ondan başlayaq ki, bu il ixtisas qrupları üzrə ərizə vermiş abituriyentlərin sayı ümumilikdə 99533 nəfərdir. Bu da ötən illə müqayisədə 20911 nəfər çoxdur. Belə ki, I qrup üzrə 33884 nəfər, II qrup üzrə 21215 nəfər, III qrup üzrə 21904 nəfər, IV qrup üzrə isə 5412 nəfər, V qrup üzrə 72058 nəfər ərizə verib.

### I qrupda rəqabət yüksək olacaq

Bu il ali məktəblərə qəbulda dövlət sifarişli yerlər ötən illə müqayisədə 746 yer artıb. Artım daha çox I qrup ixtisaslarında olub və bu qrup üzrə rəqəm 673 təşkil edir. Amma bu il I qrup üzrə 600-dən yuxarı bal toplayanların sayı da ötən illə müqayisədə təxminən iki dəfə artıb. Bu o deməkdir ki, müəyyən ixtisaslarda keçid balları artacaq.

■ **Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin sözlərinə görə, I qrupda 200-dən yuxarı bal toplayaraq müsabiqəyə buraxılan 13 982 nəfər var:** "Onların hər birinin ali məktəblərə qəbul olmaq şansı var. Əlbəttə ki, ballarına uyğun düzgün ixtisaslar seçsələr. Bu qrupda təxminən 2000 nəfər qəbul olmayacaq. Onlar 150-200 bal arasında nəticə göstərənlərdir". M.Abbaszadə vurğulayıb ki, I qrupda 300-dən yüksək bal toplayanlar dövlət sifarişli ixtisasları yaza bilər.

DİM sədri əlavə edib ki, I qrupda Fizika, Riyaziyyat və Komputer elmləri ixtisaslarını seçənlər 250 baldan yuxarı nəticə göstərməlidirlər: "Belə abituriyentlərin sayı 12 mindir. Onlar arasında yüksək rəqabət olacaq".

II ixtisas qrupunda isə vəziyyət bir qədər yaxşıdır. Bu qrupda12 min plan yeri varsa, 9 800 nəfər 150 baldan yuxarı nəticə göstərərək müsabiqəyə buraxılıb.

DİM sədrinin dediyinə görə, həmin şəxslərin hamısı ali məktəbə qəbul olacaq: "Onlardan 6 min nəfəri 200-dən yuxarı bal toplayıb. Bu qrupda 280-dən yuxarı bal toplayanlar dövlət sifarişli yerlərdə oxuya biləcək".

III qrupda dövlət sifarişi üzrə plan yerlərinin sayı əlavə olaraq 800 yer artırılıb.

Məleykə Abbaszadənin bildirdiyinə görə, DT alt qrupunda 440 baldan yüksək nəticə göstərənlərin dövlət sifarişli yerlərdə oxumaq şansları var: "Yuxarı reytinqli ixtisaslarda ballar aşağı düşə bilər. Orta və aşağı reytinqli ixtisaslarda isə ötənilki kimi olacaq".

IV ixtisas qrupunda da abituriyentlərin göstərdiyi nəticələr yüksəkdir. Bu qrupda 600-dən yuxarı bal toplayanların sayı 511 nəfərdir. Ötən il bu say 408 nəfər olub. Bu qrupda 200-dən yüksək nəticə göstərənlərin hər biri ali məktəbə qəbul oluna bilər. Bu il ən yüksək rəqabətin isə I qrupda kompüter elmləri, mühəndisliyi və informasiya texnologiyaları kimi ixtisaslarda olacağı gözlənilir. DİM sədrinin sözlərinə görə, əmək bazarında baş verən dəyişikliklər abituriyentlərin ixtisas seçimində özünü göstərir: "On il əvvəl kimsə desəydi ki, hüquq fakültəsinin keçid balı informasiya texnologiyaları ixtisaslarından az olacaq, heç kim inanmazdı. Bu il belə olacaq. Əmək bazarında baş verən dəyişiklikləri abituriyentlərin ixtisas seçimində də görürük. Bəzən ixtisas seçimləri çox zaman kortəbii aparılır. Yaxşı olardı ki, valideynlər uşaqları ilə birgə müzakirələr aparsınlar".

### İxtisas seçimi ilə bağlı qaydalar sadələşdirilməlidir

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil üzrə ekspert Nadir İsrafilov bildirib ki, abituriyentlər ixtisas seçərkən diqqətli olmalıdırlar:** "Bir misal var, əgər gedəcəyin yeri bilmirsənsə, çatacağın yerin heç bir əhəmiyyəti yoxdur. Ötən illər ərzində tərəddüdlü qərarların acı nəticələrinin çox şahidi olmuşuq. Bir mühüm məqamı da unutmamalıyıq ki ali məktəbə qəbul olmaq üçün yetərincə bal yığmaq, hələ tələbə adını qazanmaq demək deyil, düzgün ixtisas seçimi mütləqdir. Əks halda yüksək bal toplamış abituriyentlər belə, tələbə adını qazanmaqdan məhrum ola bilərlər. Ürəyincə olmayan peşəyə sahib olmaq gələcəkdə peşəkar mütəxəssis olmaq planlarının üzərindən bir qara xətt çəkə bilər".

Ekspert həmçinin vurğulayıb ki, tələbə qəbulu planı hər il Nazirlər Kabineti tərəfindən mövcud vəziyyət nəzərə alınmaqla təsdiqlənir: "Əgər əmək bazarında bir ixtisasa 5 və ya 6 nəfər də tələbat varsa, o ixtisası qəbul planından çıxarmaq olmaz.

Qəbul planı vəziyyətə uyğun olaraq təsdiqlənir. Biz ötən illərə baxsaq görərik ki, ildən-ilə ixtisasların təsnifatları dəyişir. Məsələn, bizdə neçə ixtisas var ki, plan yerləri dolmur. O demək deyil ki, həmin ixtisaslar ləğv olunmalıdır. Deməli, o ixtisaslara tələbat var ki, qəbul planında öz əksini tapır. Düzdür, indi yeni ixtisaslar meydana gəlib və gənclərin əksəiyyəti həmin ixtisaslara meyl edir. Amma o da nəzərə alınmalıdır ki, gələcəyimiz bir neçə yeni ixtisasın üzərində qurulmayıb. Bu məsələlər tədricən tənzimlənməlidir. Eyni zamanda, ixtisas seçimi ilə bağlı qaydalar da sadələşdirilməlidir. Bizdə bu qaydalar çox mürəkkəb və qarışıqdır. İxtisas qruplarında demək olar ki, hər il dəyişiklik edilir".

### Azərbaycanda əmək bazarını öyrənən sistem yoxdur

*Bu istiqamətdə hansı dəyişikliklərə ehtiyac var?*

*Bu il ən yüksək rəqabət informasiya texnologiyaları və iqtisadiyyat sahəsi üzrə ixtisaslarda müşahidə olunacaq*

■ **Mövzu ilə bağlı hafta.az-a danışan təhsil eksperti Elşən Qafarov bildirib ki, bu il ən yüksək rəqabət informasiya texnologiyaları və iqtisadiyyat sahəsi üzrə ixtisaslarda müşahidə olunacaq:** "Ümumiyyətlə, hər il Təhsil Nazirliyinin təqdimatı əsasında Nazirlər Kabineti növbəti il üçün ixtisasların təsnifatını təsdiq edir. Və zaman-zaman bu ixtisaslar dəyişir. Yeni ixtisaslar meydana gəlir, o cümlədən sənəd verilməyən ixtisaslar var ki, bunların da böyük bir hissəsi birinci qrupda yerləşirdi. Həmin ixtisaslar tədricən qəbul planından çıxarılır. Məsələ bundadır ki, qəbul planı əmək bazarına uyğun təsdiq edilməlidir. Amma bizdə əmək bazarını öyrənən sistem yoxdur. Bu yaxınlarda ölkə Prezidenti tərəfindən bu sahədə elmi tədqiqatlar institutunun yaradılması ilə bağlı sərəncam verildi və bir neçə aydan sonra Nazirlər Kabineti həmin sərəncamdan irəli gələn tədbirlərin həyata keçirilməsi ilə əlaqədar müvafiq qərarlar qəbul edəcək. Amma hazırkı vəziyyətdə biz bu məlumatları sənəd verən abituriyentlərin rtimsalında öyrənə bilirik. Məsələn, son illər informasiya texnologiyaları, iqtisadiyyat üzrə sənəd verənlərin sayı artıb. Bu il də vəziyyət demək olar ki, dəyişməyib və ən yüksək rəqabət də bu ixtisaslar üzrə olacaq"

Ekspert öz açıqlamasında həmçinin vurğulayıb ki, Dövlət İmtahan Mərkəzi 30 ildir yaranmasına baxmayaraq, apardığı bütün dəyişikliklər kosmetik xarakter daşıyır: "DİM dünyada yeganə imtahan modeli olan qrup imtahanları keçirir. Dünyada ikinci belə bir model yoxdur ki, hansısa bir ölkədə abituryent bir qrup üzrə 8-15 yer yazsın, hansına düşər düşsün. Bu, Azərbaycan gəncinin heysiyyatı ilə oynamaqdır. Dəfələrlə DİM-ə öz təkliflərimizi vermişik. Yəni, DİM-in keçirdiyi qrup imtahanının özü problemdir. Azərbaycan gənci yeganə gəncdir ki, hər 100 nəfərdən 95 nəfəri arzulamadığı, heç xəyalına gəlməyən ixtisaslar üzrə oxuyur. Sonra da əmək bazarında yer tapa bilmir. Ölkədə 40-dan çox ali təhsil müəssisəsi var. Elə ixtisaslar var ki, onlarla ali məktəb həmin ixtisas üzrə kadr hazırlayır". Ekspert deyib ki, qrup imtahanları ləğv edilib, ixtisas üzrə imtahan keçirilməlidir:

"Bununla bağlı DİM nümayəndələri ilə bağlı görüşdə də demişik və onlar da təsdiq ediblər ki, dünyada ikinci bir anoloq yoxdur ki, qrup imtahanları ilə imtahan keçirilsin. Mən çox arzu edərdim ki, DİM rəhbərliyi bu məsələyə diqqət yetirsin".

✍ ***Sevinc***


# "Azercell"dən abunəçilərinə xəbərdarlıq

Ⓡ

**Nəzərinizə çatdırmaq istərdik ki, bəzi abunəçilərimiz son zamanlar "Azercell Telekom" MMC adından saxta yolla nömrə təklifi və satışı ilə bağlı dələduzluq halları ilə qarşılaşmalı olur. Bundan əlavə, fırıldaqçıların şirkətimiz adından abunəçilər ilə əlaqə saxlaması, təklif olunan saxta nömrə ilə bağlı şəxsiyyət vəsiqəsi məlumatlarının ötürülməsi və ödənişin edilməsinə dair tələblərini irəli sürməsi hallarına da rast gəlinir.**

Müştərilərimizdən gələn müraciətlər əsasında Azercell şirkəti tərəfindən aparılmış yoxlamalar onu göstərir ki, saxta yolla göndərilən nömrənin abunəçi adına rəsmiləşdirilməsi ilə bağlı Azercell və ya şirkətin nömrə satışını həyata keçirən rəsmi dilerləri tərəfindən hər-hansı bir əməliyyat aparılmayıb. Qeyd olunan xoşagəlməz halların "Azercell Telekom" ilə heç bir əlaqəsi olmadığını nəzərə alaraq zərər çəkmiş vətəndaşların hüquq mühafizə orqanlarına müraciət etməsi tövsiyə edilir. Həmçinin, abunəçilərə vaxtaşırı SMS bildirişlərin göndərilməsi, eləcə də, Azercell-in rəsmi saytı və sosial şəbəkə səhifələrində məlumatların yerləşdirilməsi yolu ilə şirkətimiz tərəfindən maarifləndirmə tədbirləri həyata keçirilir.

Bütün yuxarıda sadalananları nəzərə alaraq, Azercell şirkəti abunəçilərini nömrə seçimi və sifarişi zamanı yarana biləcək saxtakarlıq və dələduzluq hallarının qarşısını almaq üçün əsas təhlükəsizlik tövsiyələrinə riayət etməyə çağırır:

- Tanımadığınız şəxslər tərəfindən saxta yolla nömrə təklifi etmək və ya məlumat almaq məqsədilə edilən zənglərə qarşı diqqətli olun;

- Naməlum şəxslərdən gələn zəng və ya SMS-lərdə əsasında ödənişlər etməyin;

- Etibar etmədiyiniz mənbələrlə şəxsiyyət vəsiqəsinin məlumatlarını paylaşmayın;

- Eləcə də, şübhəli məzmunlu internet saytlardan istifadə etməyin və orada keçirilən müxtəlif oyun, yarışma və sairlərdən yararlanmayın;

- gələn sms, whats app mesajlarındakı şübhəli linklərə keçid etməyin;

- Yeni nömrə əldə etmək məqsədilə yalnız Azercell şirkətinin rəsmi mənbələrindən istifadə edin:

· Rəsmi satış kanalı: www.azercellim.com <http://www.-azercellim.com> saytı;

· Azercell Eksklüziv mağazaları, eləcə də rəsmi diler şəbəkəsinin ünvanları və əlaqə nömrələri: <https://www.azercell.-com/az/personal/azercell-stores.html> ;

Abunəçilər yuxarıdakı linkdən istifadə edərək Azercell-in rəsmi dilerləri tərəfindən göndərilən nömrə təkliflərinin etibarlılığını yoxlamaq üçün nömrə siyahısını nəzərdən keçirə bilər.

- Yarana biləcək hər-hansı sual ilə bağlı yalnız Azercell şirkətinin rəsmi əlaqə vasitələrindən birinə müraciət edin:

· Online Müştəri Xidmətləri <https://www.azercell.-com/az/>

· Azercell-in rəsmi Facebook, Twitter və Instagram səhifələri;

· Azercell Telefon Mərkəzi:

- Fakturalı Xətt Abunəçiləri: +994(012) 4905252 şəhər nömrəsi və ya 6565 qısa nömrəsinə

- Fakturasız Xətt (SimSim) Abunəçiləri: +994(012) 4904949 şəhər nömrəsi və ya 2002 qısa nömrəsinə.

# Beş milyard insanı təhdid edən təhlükə

***Rusiya-Ukrayna müharibəsi uzandıqca beynəlxalq səviyyədə artıq proseslərin nüvə müharibəsinə doğru istiqamət aldığına dair bədbin proqnozların da sayı artmaqdadır. Dünyanın bu gün gəldiyi nöqtədə həmişə kinolarda gördüyümüz nüvə müharibəsi ehtimalı indi reallığa daha yaxın görünür. Bəs ən çox qorxduğumuz şey gerçəkləşərsə? Ekspertlər kifayət qədər bədbin təhlillər aparırlar...***



## Aktual

Qeyd edtdiyimiz kimi, hazırda nüvə təhlükəsi ilə bağlı ən qorxulu vəziyyət məhz Ukrayna ərazisindədir. Keçən əsrin 80-ci illərində bu ölkədə yaşanan Çernobıl faciəsinin fəsadları və dəhşətləri hələ də Avropa və digər qonşu ölkələrin yaddaşlarından silinməyib. İndi də bu AES-lərin məhz hərbi əməliyyatların mərkəzində yerləşməsi dünyanı hərəkətə keçirib.

Ukrayna Prezidenti Vladimir Zelenski müharibənin ortasında qalan Zaporojye atom elektrik stansiyasının Avropa və Qara dəniz regionu üçün fəlakətə çevrilə biləcəyi barədə xəbərdarlıq edib. Zelenski videomüraciətində deyib: "Zaporojiyada hər hansı radiasiya qəzası Avropa İttifaqına, Türkiyəyə, Gürcüstana və hətta daha uzaq bölgələrə təsir edə bilər. Hər şey küləyin istiqamətindən və gücündən asılıdır". Beynəlxalq ictimaiyyəti "Rusiyanın nüvə təhdidinə boyun əyməməyə" çağıran Zelenski "Rusiyanın törətdiyi fəlakətin nəticələri indiyə qədər səssiz qalanları vura bilər", - deyib. Zelenski elektrik stansiyasında və ətraf ərazilərdə yerləşən Rusiya qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edib. Martın əvvəlində Rusiya qüvvələrinin nəzarətinə keçən Zaporojye AES ətrafında son vaxtlar intensivləşən bombardmanlar və qarşıdurmalar mümkün nüvə fəlakəti ilə bağlı narahatlıqları artırıb. Həftənin əvvəlində Türkiyə də daxil olmaqla 42 ölkə birgə bəyanat yayaraq, Rusiyadan öz əsgərlərini atom elektrik stansiyasından tez bir zamanda geri çəkməsini tələb edib.

Nüvə təhlükəsi ilə bağlı digər bir qorxulu ssenari isə Rusiyanın Ukraynada kiçik həcmli taktiki atom bombalarından istifadə ehtimalıdır. Hərbi ekspertlər cəbhədə ciddi uuğurlar qazanmayan Rusiyanın son anda bu varianta əl ata biləcəyini istisna etmirlər.

Bu ərəfədə Rusiyanın müdafiə naziri Sergey Şoyqu "kabus ssenarisi" kimi tanınan nüvə silahından istifadə barədə danışıb. Rusiyanın hansı şəraitdə bu silahdan istifadə edəcəyini soruşduqda, Şoyqu Moskvanın yeganə meyarını açıqlayıb. Rusiyalı nazir bəyan edib ki, Moskva nüvə silahından yalnız özünümüdafiə üçün istifadə edəcək. Ukraynada nüvə silahı istifadə ehtimalını qiymətləndirən Şoyqu bu ifadələrdən istifadə etdi: "Hərbi məqsədlərə çatmaq üçün Ukraynada nüvə silahından istifadə etməyə ehtiyac yoxdur".

Qeyd edək ki, müharibənin davam etdiyi Ukrayna ərazisində birdən çox atom elektrik stansiyası var.

Ağır bombardmana məruz qala bilən və ya işğal altında olan və sui-istifadə edilə bilən nüvə qurğuları fəlakətə səbəb ola bilər, ancaq dünyanı bundan daha pisi gözləyə bilər... ABŞ-ın Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə nüvə bombası atmasından 77 il keçir. Dünya hələ də bu dəhşətli həqiqətin ağrısını və qorxusunu silməyib. Soyuq müharibə dövründən bəri saysız-hesabsız nəzəri və uydurma kitabların, serialların və filmlərin mövzusu olan ABŞ-Rusiya mümkün nüvə müharibəsinə heç vaxt olmadığı qədər yaxınıq.

"ABŞ və Rusiya arasında nüvə müharibəsi 5 milyard insanı aclıqdan məhrum edəcək"

Bütün dünya mediasında, xüsusən də Britaniya mediasında rezonans doğuran xəbər bu başlıqdır. Son araşdırmalar elmi jurnallarda özünə yer tapan xəbər bütün dünyaya yayılıb və hər kəsdə böyük qorxu yaradıb.

"Məlumatlar bizə bir şeyi deyir: biz nüvə müharibəsinin baş verməsinin qarşısını almalıyıq", - elmi araşdırmanın həmmüəllifi deyir.

Bu araşdırmaya görə, ABŞ və Rusiya arasında nüvə müharibəsi baş verərsə, təxminən 5 milyard insan, yəni dünya əhalisinin dörddə üçü aclıqdan öləcək.

Tədqiqatçılar müəyyən ediblər ki, nüvə silahları günəş şüalarının Yerə çatmasını maneə törədəcək, odlu fırtınaları tətikləyərək, dünya miqyasında məhsuldarlığı azalacaq.

Bu, nəzərdə tutulan ən böyük potensial münaqişə olsa da, elm adamları kiçik nüvə müharibələrində nələrin baş verəcəyini də araşdırıilar və qlobal qida sistemlərinin məhv olması səbəbindən milyardlarla insanın öləcəyi qənaətinə gəliblər.

Tədqiqatda onlar beş kiçik Hindistan-Pakistan nüvə müharibəsi ilə yanaşı, hər bir ölkənin nüvə arsenalının ölçüsünə əsaslanaraq, ABŞ-Rusiya böyük münaqişəsi zamanı nə baş verəcəyini nəzərdən keçiriblər.

ABŞ tədqiqatçıları müəyyən ediblər ki, ən kiçik nüvə ssenarisi beş il ərzində qlobal orta ərzaq istehsalının (kalori ilə ölçülür) 7 faiz azalmasına səbəb olacaq.

Onlar hesab edirdilər ki, əgər ABŞ və Rusiya arasında nüvə müharibəsi olarsa, hər hansı münaqişədən 3-4 il sonra ərzaq istehsalı 90 faiz azalacaq.

Bu ssenariyə əsaslanaraq, iki il ərzində dünyanın 75 faizindən çoxunun aclıqdan öləcəyi proqnozlaşdırılır.

Bu araşdırmanın həmmüəllifi Alan Robok bildirib ki, elm adamları hər hansı ölçüdə nüvə müharibəsinin qlobal qida sistemlərini məhv edəcəyini və bu prosesdə milyardlarla insanın ölümünə səbəb olacağını başa düşür.

Nyu Cersidəki Rutgers Universitetinin iqlim elmləri professoru "Bu məlumatlar bizə bir şeyi deyir: Bizim əsas prioritetimiz nüvə müharibəsinin qarşısını almaq olmalıdır", - deyib.

Mütəxəssislərin araşdırması müəyyən edib ki, məhsulun azalması Rusiya və ABŞ da daxil olmaqla, orta yüksək enlik ölkələrində ən şiddətli olacaq və idxaldan asılı olan Afrika və Yaxın Şərq ölkələrinə zərbə vura bilər.

ABŞ və Rusiya arasında nüvə müharibəsi baş verərsə, alimlər Argentina və Avstraliyanın nüvə tullantılarından və radioaktiv amillərdən xilas olmaq üçün ən yaxşı yerlər olduğunu bildiriblər.

Kompüter simulyasiyalarına əsaslanan araşdırmalara görə, 100 nüvə bombasının istifadə olunduğu, günəş şüalarının kəsildiyi və tarladakı məhsulların xarab olduğu qarşıdurma nəticəsində dünyada 5 milyarddan çox insan aclıqdan öləcək. İngiltərədə bu vəziyyətdə aclıqdan ölmə ehtimalının yüzdə 90 olduğu ifadə edilir. Argentina və Avstraliya buğda kimi çoxlu miqdarda davamlı taxıl yetişdirdiyi üçün ən təhlükəsiz ölkələr seçilib.

***Azad Əliyev***

## HƏFTƏ REYTİNQ

### Həftənin HÜCUMU



Hindəsilli məşhur britaniyalı yazıçı Salman Rüşdi Nyu-Yorkda bıçaqlı hücuma məruz qalıb. Hadisə 75 yaşlı yazıçının "Chautauqua" İnstitutundakı mühazirəsindən əvvəl baş verib. Belə ki, zaldakı şəxslərin biri səhnəyə çıxaraq Rüşdi və ondan müsahibə götürən müxbirə hücum edib. Şübhəli yazıçıya 10-15 bıçaq zərbəsi endirib. "Rüşdi boyun nahiyəsindən bıçaqlanıb və helikopterlə yerli xəstəxanaya aparılıb. Onun vəziyyəti haqda hələlik məlumat verilməyib", - ştat polisi bildirib.

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyevin imzaladığı sərəncamla Orxan Çingiz oğlu Mürsəlov Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. O.Mürsəlov bu vəzifəyə təyin olunanadək Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 8-ci ərazi sektorunun Baş məsləhətçisi vəzifəsində çalışıb. O bu vəzifədə ikən administrasiyada qərb bölgəsinin kuratoru kimi mütəmadi olaraq Samux, Ağstafa, Qazax, Gədəbəy və digər rayonlardakı tədbirlərdə iştirak edib.

### Həftənin MAHNISI



Xalq artisti Röya Ayxan şəhid Pərviz Əliyevin sevgilisinə yazdığı məktubun sözlərinə mahnı ifa edib. Bu barədə müğənni studiyada oxuduğu mahnı ilə bağlı anları instaqramda paylaşıb: "Ürəyimdən gəldi, demo paylaşmaq istədim. Notlarda səhvim ola bilər. Fikir verməyin. Çünki sözlər ürəyimə toxundu". "Yada düşürsən" mahnısının bəstəkarı Fərid Kərimliyə məxsusdur. Xalq artisti Nurəddin Mehdixanlı isə şəhidə itafən yazılan sözləri qiraət edib.

### Həftənin ÇEMPİONU




Azərbaycan sərbəst güləşçisi Kənan Heybətov Bolqarıstanın paytaxtı Sofiyada keçirilən U-20 dünya çempionatında final görüşünə çıxıb. 70 kq çəki dərəcəsi üzrə həlledici qarşılaşmada rəqib ABŞ təmsilçisi Miçel Mesenbrink olub. İlk hissəni 7:2 hesabı ilə öndə tamamlayan Heybətov ikinci yarıda da üstünlüyünü qoruyaraq, 13:7 hesabı ilə qalib gəlib və karyerasında ilk dəfə dünya çempionu olub. Qeyd edək ki, daha əvvəl Zirəddin Bayramov 65 kq çəkidə gümüş medal qazanıb.

### Həftənin ÖLÜSÜ



Ermənistan parlamentinin keçmiş deputatı, müdafiə nazirinin keçmiş müavini general Seyran Saroyan ölüb. Qeyd edək ki, I Qarabağ müharibəsi zamanı Saroyan Ermənistan ordusunda müxtəlif vəzifələrdə çalışıb. Kəlbəcər, Laçın, Zəngilan rayonlarının işğalında iştirak edən keçmiş deputat 2000-ci ildə general rütbəsi alıb. O, Birinci Qarabağ müharibəsi zamanı hərbi əsirlərə və dinc azərbaycanlı sakinlərə qarşı xüsusi amansızlığı ilə seçilib. Xocalı soyqırımı cinayətlərinin təşkilatçıları və birbaşa iştirakçıları arasında Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan, Marvel Qriqoryanla yanaşı, onun da adı hallanır.

### Həftənin KORONALISI



Amerikanın "Pfizer" əczaçılıq korporasiyasının baş icraçı direktoru, dörd dəfə koronavirusa qarşı peyvənd olunan Albert Burla koronavirusa yoluxub. O, bu barədə tviterdə yazıb. "Sizə məlumat vermək istərdim ki, koronavirus üçün verdiyim test müsbət çıxıb. Pfizer-BioNTech peyvəndinin dörd dozasını qəbul etdiyim üçün özümü yaxşı hiss edirəm, çox yüngül simptomlarım var".

*Azad Əliyev*

# "Bakcell" qazi və şəhid övladları üçün kurslar təşkil edib




**"Bakcell" şirkətinin şəhid və qazi övladları üçün təşkil etdiyi ödənişsiz ingilis dili kursları başa çatıb. "You Will Speak" təşkilatı ilə birlikdə həyata keçirilən layihədə müxtəlif bölgələrdən 50 uşaq iştirak edib.**

8 ay müddətində onlayn keçirilən ingilis dili kurslarının sonunda uşaqların ingilis dili bilikləri qiymətləndirilib. "Bakcell" şirkəti uşaqların inkişafını və təhsilini dəstəkləyən bir çox sosial məsuliyyət layihələri həyata keçirir.

Şirkətin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiya departamentindən bildirilib: "Müharibədən əziyyət çəkən uşaqlara qayğı və diqqət bizim Korporativ Sosial Məsuliyyət proqramımızın əsas istiqamətlərindən birini təşkil edir. "Bakcell" şirkəti bu sahədə bir neçə layihə həyata keçirir".

# "Nar" nüfuzlu beynəlxalq mükafata layiq görüldü

**"Nar" "Stevie® Awards" beynəlxalq biznes mükafatına layiq görülüb. Mobil operator bu il müştəri məmnuniyyəti nominasiyası üzrə "Stevie®" mükafatına layiq görülən yeganə Azərbaycan şirkəti oldu.**




"Nar"ın son üç il ərzində Müştəri Loyallığı İndeksi üzrə (Net Promoter Score) Azərbaycan mobil rabitə bazarındakı liderliyi və eləcə də, çoxfunksiyalı "Nar+" tətbiqi mükafatın münsifləri tərəfindən xüsusi vurğulanıb.

Qeyd edək ki, "Stevie® Awards" 2002-ci ildə ABŞ-da təsis olunub, məqsədi dünya üzrə biznes sahəsində fəaliyyət göstərən şirkətlərin və şəxslərin nailiyyətlərini mükafatlandırmaq və müsbət örnək kimi tanıtmaqdır.

2019, 2020 və 2021-ci illərdə keçirilən müstəqil araşdırmalar nəticəsində ardıcıl olaraq müştərilərin yüksək loyallığını qazanan "Nar" Azərbaycanda müştəri yönümlü biznes siyasəti, sərfəli qiymətləri ilə tanınır.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## GÜNÜN FOTOSU



Şabrandakı yanğında 13 ev yandı

## Laçından Zəngəzura uzanan yol

**Teymur Qasımlı,**
politoloq

Zəngəzur dəhlizi böyük güclər üçün önəmlidir, amma o güclərin də burada marağı var və öz paylarını götürmək istəyirlər.

Səh. 2

## STATİSTİKA



**Bu ilin yanvar-iyul ayları ərzində Azərbaycana 14 milyon 624.26 min ABŞ dolları dəyərində 39 min 642.75 ton qarğıdalı idxal edilib.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkəyə idxal edilən qarğıdalının dəyəri 64,2%, həcmi isə 2 dəfə artıb. Ötən ilin eyni dövrü ilə müqayisədə ölkəyə idxal edilən qarğıdalının hər tonunun orta qiyməti isə 19,2% azalıb. Belə ki, 2021-ci ilin yeddi ayında bir ton qarğıdalının Azərbaycana idxalı orta hesabla 456,7 dollara başa gəlibsə, bu ilin eyni dövründə bu rəqəm 368,9 dollara enib.



Səh. 7

# Fermerin taxılı satmaq problemi olmayacaq